# YENİ AZƏRBAYCAN

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur. Yeni Azərbaycan Partiyasının orqanı.

17 dekabr 2025-ci il, çərşənbə
№ 230 (7057)
Qiymәti 60 qəpik




Milli azadlıqdan şirin nemət yoxdur!

# Minlərlə insanı əhatə edəcək genişmiqyaslı akt...



## Yeni amnistiya təşəbbüsü: humanizm siyasətində növbəti yaddaqalan mərhələ

Bax səh. 2

## Milli Məclisin iclasında...
# Prezident İlham Əliyevin təşəbbüsü alqışlanıb

Bax səh. 3

## Dövlət həmkarlar ittifaqlarının sərbəst fəaliyyət hüququnu qanunvericilik çərçivəsində tam təmin edir

Hörmətli Qurultay iştirakçıları!

Sizi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının VIII Qurultayında salamlayıram.

Azərbaycan həmkarlar ittifaqları çoxşaxəli fəaliyyəti, əmək münasibətlərinin inkişafında rolu və vətəndaş cəmiyyətinin möhkəmlənməsinə verdiyi töhfələrlə respublikanın ictimai və sosial həyatında önəmli yer tutur.

Ölkəmizdə işçilərin əmək və sosial-iqtisadi hüquqlarının qorunması, layiqli iş şəraitinin yaradılması, sosial tərəfdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi sahəsində əhəmiyyətli addımlar atılır. Müasir dövrün çağırışlarına çevik uyğunlaşmaq, həmkarlar ittifaqları üzvləri ilə sıx əlaqələr qurmaq, xidmətləri rəqəmsallaşdırmaq, müvafiq sahələrdə süni intellektin tətbiqi imkanlarını genişləndirmək, xidmət keyfiyyətini və məmnunluq səviyyəsini yüksəltmək xüsusi əhəmiyyət daşıyır. Beynəlxalq əmək standartlarına uyğun fəaliyyət, dünya həmkarlar hərəkatı ilə əməkdaşlıq və qarşılıqlı təcrübə mübadiləsi həmkarlar ittifaqlarının nüfuzunun daha da artırılmasına xidmət edir. Güclü və sağlam vətəndaş cəmiyyətinin inkişafında, həmrəyliyin möhkəmlənməsində həmkarlar ittifaqları mühüm işlər görür.

Respublikamızın dinamik sosial-iqtisadi inkişafı, “yaşıl iqtisadiyyat”a ədalətli keçid, süni intellektin əmək bazarına təsiri həmkarlar ittifaqlarının...

Bax səh. 3




Bax səh. 4

## YAP Sədrinin müavini Tahir Budaqov Türkiyədə səfərdə olub

## Bəşəriyyət üçün dialoqun 20 ili...

Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyad şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Sivilizasiyalar Alyansının (UNAOC) 11-ci Qlobal Forumu keçirilib. 14-15 dekabrda “UNAOC: Bəşəriyyət üçün dialoqun 20 ili - Çoxqütblü dünyada qarşılıqlı hörmət və anlaşmanın yeni dövrünə doğru” şüarı ilə keçirilən forumda dövlət və hökumət başçıları, beynəlxalq və regional təşkilatların rəhbərləri, dini liderlər, eləcə də özəl sektor, gənclər, incəsənət, idman, akademik dairələrin təmsilçiləri və media nümayəndələri iştirak ediblər. Forum Alyansın yaranmasının 20 illiyinə və üçüncü onilliyə daxil olması münasibətilə davamlı sülhün təmin edilməsi istiqamətində gələcək fəaliyyət planının müəyyənləşdirilməsinə həsr olunub.

Tədbirdə Azərbaycanın mədəniyyət naziri Adil Kərimlinin rəhbərlik etdiyi nümayəndə heyəti, Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov iştirak ediblər.

Forumun açılış mərasimində Səudiyyə Ərəbistanı Krallığının xarici işlər naziri Feysəl bin Fərhan Al Səud, BMT-nin Baş katibi Antonio Quterreş, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi, BMT-nin İslamofobiya məsələləri üzrə xüsusi nümayəndəsi Migel Moratinos, İspaniyanın inklüzivlik, sosial təhlükəsizlik və miqrasiya naziri Elma Saiz Delqado və Tükiyənin keçmiş Baş naziri, Türkiyə Böyük Millət Məclisinin sabiq sədri Binəli Yıldırımın çıxışları dinlənilib.

İki gün davam edən forum çərçivəsində təşkil olunan sessiyalarda “Çoxqütblü dünyada məsuliyyətli liderlik: inklüziv dialoq vasitəsilə çoxtərəfliliyin təşviqi”, “Bəşəriyyətə inam: dinlərarası dialoq sülhə və vahid bəşəriyyətə körpü kimi”, “Rəqəmsal reallıqlardan real dünyaya: dipfeyklərə, süni intellektlə idarəolunan...

Bax səh. 4

## İdxal-ixracın yeni “pəncərə”si

Bax səh. 3

## İnvestisiya qoyuluşları artıb

Bax səh. 5

## Qərb koalisiyası Berlindən səsləndi...

Bax səh. 7



## BMT-də islahatlar zamanın tələbidir!

Bax səh. 6

## Abbasov Kərimliyə pul göndərirmiş... Rüstəmlinin vasitəsi ilə ?

Bax səh. 6

## BBC məhkəmə çəkişməsində...




Bax səh. 7

# Dövlət həmkarlar ittifaqlarının sərbəst fəaliyyət hüququnu qanunvericilik çərçivəsində tam təmin edir

## Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının VIII Qurultayının iştirakçılarına



Hörmətli Qurultay iştirakçıları!

Sizi Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının VIII Qurultayında salamlayıram.

Azərbaycan həmkarlar ittifaqları çoxşaxəli fəaliyyəti, əmək münasibətlərinin inkişafında rolu və vətəndaş cəmiyyətinin möhkəmlənməsinə verdiyi töhfələrlə respublikanın ictimai və sosial həyatında önəmli yer tutur.

Ölkəmizdə işçilərin əmək və sosial-iqtisadi hüquqlarının qorunması, layiqli iş şəraitinin yaradılması, sosial tərəfdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi sahəsində əhəmiyyətli addımlar atılır. Müasir dövrün çağırışlarına çevik uyğunlaşmaq, həmkarlar ittifaqları üzvləri ilə sıx əlaqələr qurmaq, xidmətləri rəqəmsallaşdırmaq, müvafiq sahələrdə süni intellektin tətbiqi imkanlarını genişləndirmək, xidmət keyfiyyətini və məmnunluq səviyyəsini yüksəltmək xüsusi əhəmiyyət daşıyır. Beynəlxalq əmək standartlarına uyğun fəaliyyət, dünya həmkarlar hərəkatı ilə əməkdaşlıq və qarşılıqlı təcrübə mübadiləsi həmkarlar ittifaqlarının nüfuzunun daha da artırılmasına xidmət edir. Güclü və sağlam vətəndaş cəmiyyətinin inkişafında, həmrəyliyin möhkəmlənməsində həmkarlar ittifaqları mühüm işlər görür.

Respublikamızın dinamik sosial-iqtisadi inkişafı, "yaşıl iqtisadiyyat"a ədalətli keçid, süni intellektin əmək bazarına təsiri həmkarlar ittifaqlarının qarşısında məsuliyyətli və strateji vəzifələr qoyur, onları daha fəal olmağa sövq edir. İşçilərlə işəgötürənlər arasında sosial dialoqun əsas tərəfdaşı və əmək dəyərlərinin qoruyucusu kimi çıxış edən həmkarlar ittifaqları peşə birliklərinin möhkəmləndirilməsi, işçilərin maarifləndirilməsi, əmək hüquqları sahəsində onların bilik və bacarıqlarının artırılması prosesində yaxından iştirak etməlidir. Bütün bunlar əmək münasibətlərinin düzgün tənzimlənməsinə, sosial ədalətin və qarşılıqlı məsuliyyətin təmin olunmasına xidmət edir.

Azərbaycan dövləti həmkarlar ittifaqlarının müstəqil və sərbəst fəaliyyət hüququnu qanunvericilik çərçivəsində tam təmin edir və bu sahədə onların azad fəaliyyəti üçün geniş imkanlar yaradıbdır.

Sahə həmkarlar ittifaqlarının sosial tərəfdaşlarla səmərəli əməkdaşlığın dərinləşdirilməsinə və qarşılıqlı etimad mühitinin formalaşdırılmasına, kollektiv məsuliyyətin artırılmasına xüsusi diqqət yetirilməlidir.

Hörmətli Qurultay iştirakçıları!

Əminəm ki, Azərbaycan həmkarlar ittifaqları bundan sonra da üzvlərinin hüquq və maraqlarını əzmlə müdafiə edəcək, əmək münasibətlərinin müasir və sivil əsaslarla tənzimlənməsinə, bütünlükdə ölkəmizin sosial-iqtisadi inkişafına töhfələr verəcəkdir.

Hesab edirəm ki, bu Qurultay həmkarlar hərəkatının yeni çağırışlara uyğun inkişaf istiqamətlərinin müəyyənləşdirilməsi və təkmil fəaliyyət strategiyasının formalaşması baxımından böyük önəm daşıyacaqdır.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının VIII Qurultayının işinə uğurlar arzulayıram.

**İlham Əliyev,**
**Azərbaycan Respublikasının Prezidenti**
**Bakı şəhəri, 16 dekabr 2025-ci il**

# Minlərlə insanı əhatə edəcək genişmiqyaslı akt...

## Yeni amnistiya təşəbbüsü: humanizm siyasətində növbəti yaddaqalan mərhələ

Humanizm ideyası hər bir cəmiyyətin mənəvi sütunlarını formalaşdıran, insan hüquq və azadlıqlarını ali dəyər kimi qəbul edən universal prinsipdir. Dövlətin gücü yalnız iqtisadi və hərbi potensialı ilə deyil, eyni zamanda vətəndaşına münasibəti, onun taleyinə göstərdiyi diqqət və mərhəmətlə ölçülür. Bu baxımdan əfv sərəncamları və amnistiya aktları dövlət-vətəndaş münasibətlərində humanizm göstəricisinin ən parlaq təzahürlərindən biri kimi çıxış edir. Cinayət törətmiş, lakin cəmiyyətə yenidən inteqrasiya olunmaq, səhvindən nəticə çıxarmaq imkanı qazanmış şəxslərə ikinci şansın verilməsi hüquqi dövlət anlayışının mühüm tərkib hissəsidir.

### Ulu öndərin əsasını qoyduğu siyasi xətt...

Bu ali dəyər ölkəmizdə də ən yüksək formada öz təzahürünü tapıb - eyni zamanda, Azərbaycanda humanizmə söykənən bu yanaşma təsadüfi xarakter daşımır, sistemli və ardıcıl dövlət siyasətinin nəticəsi kimi qəbul olunur. Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan bu siyasi xətt hüquqi islahatların, demokratik institutların formalaşmasının və insan amilinin ön plana çəkilməsinin əsas ideoloji dayaqlarından biri olub. Ümummilli Liderin təşəbbüsü ilə ölkədə əfv və amnistiya institutları humanist mahiyyət kəsb edərək, cəza siyasətində sərtliklə mərhəmət arasında tarazlığın qorunmasına xidmət edib.

Bu ənənə cəmiyyətin sağlamlaşmasına, sosial ədalətin və hüquqi bərabərliyin təmin olunmasına mühüm töhfələr verib. Xatırladaq ki, müstəqil Azərbaycanın dövlət siyasətində humanizm ənənəsinin əsasını Ulu Öndər Heydər Əliyev qoyub. 1995-ci ildə ölkəmizdə amnistiya institutu məhz Onun təşəbbüsü ilə təsis edilib və Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyası yaradılıb. Bütövlükdə, 1995-2003-cü illərdə respublikamızda Heydər Əliyevin siyasi iradəsi əsasında 7 amnistiya aktı və 32 əfv fərmanı imzalanıb. Bu amnistiya aktları 77 mindən çox insana şamil edilib.

### 71 əfv sərəncamı və fərmanı, 12 amnistiya aktı...

Azərbaycanın inkişafının bütün mərhələlərində əfv sərəncamları və amnistiya aktları təkcə hüquqi sənəd deyil, eyni zamanda dövlətin vətəndaşa olan etimadının, insan ləyaqətinə verdiyi dəyərin ifadəsi kimi qəbul olunub. Bu addımlar cəzaçəkmə müəssisələrində saxlanılan şəxslərin yenidən cəmiyyətə qazandırılması, ailə institutunun möhkəmləndirilməsi və sosial gərginliyin azaldılması baxımından da xüsusi əhəmiyyət daşıyır.

Heydər Əliyevin əsasını qoyduğu dövlət siyasətində humanizm ənənəsi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Müxtəlif tarixi günlər və əlamətdar hadisələr ərəfəsində imzalanan əfv sərəncamları, Milli Məclis tərəfindən qəbul olunan amnistiya aktları Azərbaycanın hüquqi, demokratik və humanist dövlət olduğunu bir daha təsdiqləyir. Bu siyasət göstərir ki, Azərbaycan dövləti üçün insan amili hər zaman prioritetdir və humanizm prinsipi milli dövlətçilik fəlsəfəsinin ayrılmaz hissəsi olaraq qalır. Ümumiyyətlə, müstəqillik dövründə respublikamızda 71 əfv sərəncamı və fərmanı, eləcə də 12 amnistiya aktı nəticəsində 10 minlərlə insan azadlığa qovuşub. Eyni zamanda, hər zaman nəcib, humanist təşəbbüsləri ilə ali insani dəyərlərə yüksək qiymət verən Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın bu istiqamətdəki fəaliyyəti də xüsusi qeyd edilməlidir. Mehriban xanım Əliyeva Milli Məclisin deputatı olarkən onun təşəbbüsü ilə 2007, 2009, 2013 və 2016-cı illərdə amnistiya aktları qəbul edilib. Bu təşəbbüslər xeyirxahlıq və mərhəmət kimi mənəvi idealların təcəssümünə çevrilib.

Sonuncu Əfv Sərəncamı bu ilin mayında, 28 May - Müstəqillik Günü ərəfəsində imzalanıb. Prezident İlham Əliyevin 26 may 2025-ci il tarixində "Məhkum edilmiş bir sıra şəxslərin əfv olunması haqqında" növbəti Sərəncamına əsasən azadlıqdan məhrum etmə cəzasına məhkum olunmuş 175 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib, həmçinin azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş 25 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş və cəzası şərti tətbiq edilmiş 1 nəfər, azadlıqdan məhrumetmə cəzasına məhkum edilmiş və cəzalarının çəkilməsi təxirə salınmış 2 nəfər cəzadan azad edilib. Bundan başqa, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 10 nəfər cəzanın çəkilməmiş hissəsindən azad edilib, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 2 nəfərin cəzasının çəkilməmiş hissəsi yarıyadək azaldılıb, islah işləri cəzasına məhkum edilmiş 4 nəfər cəzanın çəkilməmiş hissəsindən, cərimə cəzasına məhkum edilmiş 1 nəfər cəzadan azad edilib.



### Ən böyük amnistiya...

Azərbaycan Prezidenti "Konstitusiya və Suverenlik İli" münasibətilə növbəti humanizm nümunəsi ortaya qoyub. Son günlərini yaşadığımız 2025-ci il Azərbaycan tarixinin ən parlaq, ən yaddaqalan dövrlərindən birinə çevrilib. Bu il Vətən müharibəsində əldə edilən Zəfər nəticəsində suverenliyimizin bərpasının beşinci ildönümünü yaşayırıq. Məhz Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və uzaqgörən strategiyası, sarsılmaz liderliyi və Silahlı Qüvvələrimizin misilsiz qəhrəmanlığı sayəsində Vətən müharibəsində qazandığımız Zəfər və lokal xarakterli antiterror əməliyyatı nəticəsində suverenliyimiz və ərazi bütövlüyümüz tam bərpa edildi. Suverenliyimizin bərpasının, Konstitusiyamızın ali hüquqi qüvvəsinin ölkəmizin bütün ərazilərində bərqərar olunmasının xalqımızın ən böyük tarixi qələbəsi olduğunu nəzərə alaraq, humanizm və mərhəmət ənənələrinə sadiq qalaraq, cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə inanaraq, cəzadan azad olunacaq şəxslərin qanunlara dönmədən əməl edəcəklərinə və dövlətimizin inkişafına öz töhfələrini verəcəklərinə ümid edərək Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev amnistiya elan edilməsi təşəbbüsünü irəli sürüb. Qeyd edək ki, amnistiya aktının layihəsinə əsasən, Azərbaycan Respublikasının suverenliyinin və ərazi bütövlüyünün qorunması uğrunda aparılan döyüş əməliyyatlarında, o cümlədən Vətən müharibəsində və 2023-cü il sentyabrın 19-20-də keçirilmiş antiterror əməliyyatında iştirak etmiş şəxslərin, eləcə də bu əməliyyatlarda həlak olmuş və ya xəbərsiz itkin düşmüş şəxslərin yaxın qohumlarının, Ermənistan Respublikasının mülki əhaliyə qarşı hərbi təxribatı nəticəsində əlil olmuş şəxslərin, habelə qadınların, 60 yaşına çatmış şəxslərin, cinayət törədərkən yetkinlik yaşına çatmayanların və digər şəxslərin cəzadan və ya cinayət məsuliyyətindən azad edilmələri nəzərdə tutulur.

Bununla yanaşı, layihəyə əsasən, böyük ictimai təhlükə törətməyən və ya az ağır cinayət, habelə ehtiyatsızlıqdan cinayət törətdiklərinə görə azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş bir sıra şəxslər cəzadan azad ediləcək və ya cəzalarının çəkilməmiş hissəsi azaldılacaqdır.

Azərbaycan Respublikasının Prezidenti tərəfindən Azərbaycan Respublikasının Milli Məclisinə təqdim olunan Amnistiya aktının tətbiq ediləcəyi şəxslərin, o cümlədən azadlıqdan məhrumetmə cəzasından azad ediləcək məhkumların sayına görə ən böyük amnistiya olacağı ehtimal edilir. Belə ki, amnistiya aktının ümumilikdə 20 mindən çox şəxsə şamil ediləcəyi gözlənilir. Bunlardan 5 mindən çox məhkumun azadlıqdan məhrumetmə cəzasından azad ediləcəyi, həmin cəzaya məhkum olunmuş 3 mindən artıq şəxsin cəzasının azaldılacağı, 7 mindən çox məhkumun azadlığın məhdudlaşdırılması cəzasından, 4 minə yaxın məhkumun azadlıqdan məhrumetmə ilə bağlı olmayan digər cəzalardan və ya şərti tətbiq edilmiş cəzalardan, habelə mindən çox şəxsin cinayət məsuliyyətindən azad ediləcəyi proqnozlaşdırılır.

### Əfvin amnistiya ilə fərqi...

Amnistiya və əfvetmənin tətbiqi Azərbaycan Respublikasının Konstitusiyasında öz əksini tapmışdır. Konstitusiyanın 109-cu maddəsinin 22-ci bəndinə görə, əfvetmə səlahiyyəti Azərbaycan Respublikasının Prezidentinə məxsusdur. Konstitusiyanın 95-ci maddəsinin I hissəsinin 19-cu bəndinə uyğun olaraq, amnistiya məsələlərinin həlli Azərbaycan Respublikası Milli Məclisinin səlahiyyətlərinə aiddir. Azərbaycan Respublikasının qüvvədə olan Cinayət Məcəlləsinin 81-ci maddəsinə əsasən, amnistiya aktı fərdi qaydada müəyyən edilməyən şəxslər barəsində Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilir. Cinayət törətmiş şəxslər amnistiya aktı ilə cinayət məsuliyyətindən azad edilə bilərlər. Cinayət törətməyə görə məhkum olunmuş şəxslər isə cəzadan azad edilə bilərlər, yaxud onlara təyin olunmuş cəzanın müddəti azaldıla bilər və ya belə şəxslərin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər. Amnistiya aktı ilə belə şəxslər əlavə cəzadan da azad edilə bilərlər. Amnistiya aktı ilə cəzasını çəkmiş şəxslərin məhkumluğu da götürülə bilər.

CM-in 82-ci maddəsinə görə, əfvetmə fərdi qaydada müəyyən edilmiş şəxs barəsində Azərbaycan Respublikasının Prezidenti tərəfindən həyata keçirilir. Cinayət törətməyə görə məhkum olunmuş şəxs əfvetmə aktı ilə cəzanın qalan hissəsini çəkməkdən azad edilə bilər, yaxud ona təyin olunmuş cəzanın müddəti azaldıla bilər. Paralel olaraq belə şəxsin cəzasının çəkilməmiş hissəsi daha yüngül cəza növü ilə əvəz edilə bilər. Ömürlük azadlıqdan məhrumetmə cəzası əfv qaydasında iyirmi beş ildən çox olmayan müddətə azadlıqdan məhrumetmə cəzası ilə əvəzlənə bilər. Əfvetmə aktı ilə də cəzasını çəkmiş şəxsin məhkumluğu götürülə bilər. Əfvetmə aktı ilə amnistiya aktı arasında fərqə gəldikdə isə, Əfvetmə aktı amnistiyadan fərqli olaraq normativ xarakterli deyildir. Əfvetmə konkret hallar üzrə tətbiq edilən aktdır. Eyni zamanda, Əfvetmə aktı məlum şəxslər barəsində tətbiq edildiyi halda, amnistiya fərdən qeyri-müəyyən məhkumlar barəsində tətbiq edilir. Hər iki akt birdəfəlik tətbiqetmə üçün nəzərdə tutulsa da, əfvetmə yalnız qanuni qüvvəyə minmiş hökm əsasında məhkum edilmiş şəxslərə münasibətdə, amnistiya aktı isə cinayət prosesinin istənilən mərhələsində tətbiq edilə bilər, yəni şəxsi məsuliyyətdən və cəzadan azad edə bilər.

*Pərviz SADAYOĞLU*

## Milli Məclisin iclasında...

# Prezident İlham Əliyevin təşəbbüsü alqışlanıb




## Azərbaycanla Türkiyə arasında hərbi təhlükəsizliklə bağlı imzalanmış Anlaşma Memorandumu təsdiqlənib

Dekabrın 16-da Milli Məclisin növbəti iclası keçirilib. Spiker Sahibə Qafarova iclasın gündəliyi haqqında məlumat verib. Gündəliyə 10 məsələ daxil edilib.

İclasda əvvəlcə cari məsələlərlə bağlı çıxış edən millət vəkilləri "Konstitusiya və Suverenlik İli"ndə Prezident İlham Əliyev tərəfindən irəli sürülmüş amnistiya aktını alqışlayaraq bu təşəbbüsün ölkəmizdə humanizm siyasətinin növbəti nümunəsi olduğunu vurğulayıblar.

Sonra gündəlikdəki məsələlər müzakirə olunub. Öncə "Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Türkiyə Respublikasının Milli Müdafiə Nazirliyi arasında qarşılıqlı hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə dair Anlaşma Memorandumu" təsdiqlənib. Sənəd bu il iyulun 22-də İstanbul şəhərində imzalanıb. Bu barədə məlumat verən parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev bildirib ki, Anlaşma Memorandumunun məqsədi qarşılıqlı olaraq tərəflərin dövlətlərinin təhlükəsizliyinin və ərazi bütövlüyünün təmin olunması, habelə suverenliyinin və müstəqilliyinin qorunması üçün tərəflər arasında müdafiə sahəsində əməkdaşlığın gücləndirilməsidir. Onun sözlərinə görə, sənəd Azərbaycan-Türkiyə strateji müttəfiqliyinin, o cümlədən Şuşa Bəyannaməsində təsbit olunmuş müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığın dərinləşdirilməsinə xidmət edir: "Memorandumun məqsədi hərbi təhlükəsizlik sahəsində qarşılıqlı koordinasiyanın gücləndirilməsi, birgə təlimlərin, hərbi təhsilin və müdafiə sənayesi üzrə əməkdaşlığın inkişaf etdirilməsidir. Sənəd 8 maddədən ibarətdir".

Razılığa əsasən, tərəf dövlətlər birinin silahlı təcavüzə məruz qaldığı halda BMT Nizamnaməsinin 51-ci maddəsi ilə tanınan fərdi və birgə özünümüdafiə hüquqlarının həyata keçirilməsi üçün bir-birlərinə qarşılıqlı yardımın göstərilməsi öhdəliyini götürürlər. Tərəflərin bir-birlərinə hərbi yardım göstərməsi onlardan birinin sorğusu əsasında və buna dair milli qanunvericiliklərində müəyyən edilmiş qaydaya uyğun olaraq həyata keçirilir. Tərəflər dinc dövrdə yuxarıda qeyd edildiyi kimi mütəmadi olaraq birgə hərbi təlimlər və manevrlər keçirirlər.

Memorandum yalnız hərbi əməkdaşlıq və hərbi təhlükəsizlik sahəsindəki məsələləri əhatə edir və bu çərçivədə yalnız müdafiə sahəsində qarşılıqlı yardım, təlim, təchizat və tərəflərin birlikdə fəaliyyət qabiliyyətinin artırılmasını ehtiva edir. Tərəflər, öz milli qanunvericiliklərinə uyğun olaraq, hərbi sahədə məlumat mübadiləsini və hərbi kəşfiyyat əməkdaşlığını gücləndirirlər, buna müvafiq olaraq, hərbi təhlükəsizlik sahəsində əldə olunan məlumatları (məxfi, tam məxfi, xüsusi əhəmiyyətli) bir-birləri ilə paylaşa və bu məlumatlardan birgə əməliyyatlar zamanı istifadə edə bilərlər.

Anlaşma Memorandumuna tərəflərin qarşılıqlı yazılı razılığına əsasən istənilən zaman düzəliş və ya əlavələr edilə bilər. Tərəflərdən hər biri digər tərəfə ləğvetmə niyyətini diplomatik kanallar vasitəsilə yazılı şəkildə bildirərək Memorandumu ləğv edə bilər. Bu halda Memorandum həmin bildirişin alındığı tarixdən 60 gün sonra ləğv edilir. "Anlaşma Memorandumu beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həyata keçirilir, üçüncü dövlətlərə qarşı yönəlmir və regionda sülh və təhlükəsizliyin möhkəmləndirilməsinə töhfə verir",-deyə komitə sədri vurğulayıb.

Sonra "Kosmonavtların xilas edilməsi, kosmonavtların geri qaytarılması və kosmik fəzaya çıxarılmış obyektlərin geri qaytarılması haqqında Saziş"ə qoşulmaq barədə" qanun layihəsi müzakirə edilib. Layihəyə əsasən, kosmik gəminin şəxsi heyətinin qəzaya uğraması, təcili və gözlənilmədən eniş etmə barədə məlumat alan tərəfin vəzifələrini müəyyən edir bu sahədə yarana biləcək münasibətlərin effektiv qaydada tənzimlənməsini nəzərdə tutur. Sazişdə kosmonavtlara mümkün olan bütün yardımların göstərilməsini, onların dərhal təhlükəsiz geri qaytarılmasını və s. məsələləri tənzimləyən bir sıra vacib müddəalar müəyyən edilib. Sazişdə qəza, fəlakət, təcili və ya gözlənilmədən eniş səbəbi ilə kosmik gəminin şəxsi heyəti üçün bütün mümkün tədbirlərin görülməsi öhdəliyi müəyyənləşir, razılığa gələn tərəflərin üzərinə bu barədə Birləşmiş Millətlər Təşkilatının Baş katibinin dərhal məlumatlandırılması vəzifəsi qoyulur. Sazişin digər müddəaları yuxarıda sadalanan məsələlərdən irəli gələn texniki, inzibati, xilasetmə tədbirlərinin həyata keçirilməsi qaydalarını, imzalanma və ratifikasiya üçün prosedurları, Sazişin mətninə düzəlişləri, mətnlərin autentikliyi və digər əlaqəli məsələləri tənzimləyir.

Daha sonra "Azərbaycan Respublikası Hökuməti ilə Ruanda Respublikası Hökuməti arasında hava əlaqəsi haqqında Saziş" təsdiqlənib.

İclasda, həmçinin "Nəqliyyat-ekspedisiya fəaliyyəti haqqında" qanun layihəsi (üçüncü oxunuş) qəbul edilib. 8 fəsil, 31 maddədən ibarət olan qanun layihəsi Azərbaycan Respublikasının ərazisində nəqliyyat-ekspedisiya fəaliyyətinin hüquqi, təşkilati və iqtisadi əsaslarını müəyyən edir, bu sahədə dövlət orqanlarının (qurumlarının), habelə hüquqi şəxslərin, xarici hüquqi şəxslərin filial və nümayəndəliklərinin və fərdi sahibkarların fəaliyyətini, həmçinin, onlar arasında yaranan münasibətləri tənzimləyəcək.

"Dövlət qulluğu haqqında" qanuna təklif edilən dəyişiklikdə isə bildirilir ki, dövlət qulluğunda olmanın yaş həddinə çatdığı üçün dövlət qulluğuna xitam verildikdə, digər pensiya növünün təyin edilməsindən asılı olmayaraq, ona öz seçimi ilə dövlət qulluğunun son 24 ayı və ya istənilən ardıcıl gələn 60 ayı ərzindəki dövlət məvacibinin orta aylıq məbləğinin 6 misli miqdarında birdəfəlik haqq veriləcək. Bu məbləğdən vergi, məcburi dövlət sosial sığorta haqqı və digər icbari ödənişlər tutulmayacaq.

İclasda, həmçinin əmək qanunvericiliyinə də bir sıra dəyişikliklər edilib. Bildirilib ki, ölkəmizdə işçilərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində sistemli və məqsədyönlü tədbirlər həyata keçirilir. Azərbaycanda elektron hökumət qurulması istiqamətində böyük iş gedir, texnologiyaların, xüsusilə süni intellektin tətbiqinin əmək münasibətlərinə təsiri daha da genişlənir. Bu səbəbdən təklif olunan layihədə də əmək qanunvericiliyinin müasir çağırışlara uyğunlaşdırılması, beynəlxalq əmək normalarını nəzərə almaqla təkmilləşdirilməsi, elektron sistemlərlə bağlı yeni qaydaların müəyyənləşdirilməsi və mövcud boşluqların aradan qaldırılması məqsədilə bir sıra dəyişikliklər təklif olunub. Müzakirələrdən sonra dəyişikliklər birinci oxunuşda qəbul edilib.

Millət vəkilləri iclasın gündəliyində olan digər qanun layihələrini də qəbul ediblər.

Sonda spiker Sahibə Qafarova Milli Məclisin növbəti iclasının dekabrın 19-da keçiriləcəyini deyib.

*Nardar BAYRAMLI*

---

**Tranzit, nəqliyyat və logistika üzrə fəaliyyət rəqəmsallaşdırılaraq "Bir pəncərə" sistemilə idarə olunacaq**

# İdxal-ixracın yeni "pəncərə"si

Prezident İlham Əliyev "İdxal-ixrac, tranzit, nəqliyyat və logistika üzrə fəaliyyətin rəqəmsallaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında" fərman imzalayıb. Sənədə əsasən, "Bir pəncərə" informasiya sistemi yaradılacaq, sistem vasitəsilə xarici ticarət əməliyyatları, daşınan yüklərin hərəkəti, sərhədkeçmə prosedurları, nəqliyyat sənədlərinin təqdim edilməsi, ödənişlərin aparılması və statistik məlumatların əldə olunması tam elektron qaydada təmin olunacaq. Həmçinin informasiya təhlükəsizliyi, dövlət informasiya ehtiyatlarının formalaşdırılması və elektron xidmətlərin vahid reyestrinə daxil edilməsi ilə bağlı tədbirlər nəzərdə tutulub.

## Sadələşdirilmiş Gömrük Dəhlizi yaradılır

Azərbaycanın strateji-coğrafi mövqeyi regionun vacib tranzit və logistika mərkəzlərindən birinə çevrilməsinə səbəb olmaqdadır. Respublikamız Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin tərkib hissəsi olan Orta Dəhlizdə və Şimal-Cənub beynəlxalq nəqliyyat koridorunda öz tranzit potensiallarının dayanmadan artırır.

Şərq və Qərb coğrafiyalarındakı mövcud nəqliyyat və logistika infrastrukturlarını müasirləşdirir və tranzit ölkələri ilə əlaqələndirir.

Respublikamız hazırda ən son rəqəmsal ticarət və logistika modellərini tətbiq edərək regiondakı inkişaf trendlərindən geri qalmaq istəmir. Bu məqsədlə, idxal-ixrac proseslərini asanlaşdırmaq, nəqliyyat və logistika hərəkətliliyini artırmaq üçün Sadələşdirilmiş Gömrük Dəhlizinin və "Transxəzər Gömrük Tranzit Portalı"nın yaradılması istiqamətində ardıcıl addımlar atılmaqdadır. Eləcə də, Orta Dəhliz boyunca gömrük və ticarət proseslərin asanlaşdırılması hədəflərinə uyğun olaraq vahid gömrük informasiya sisteminin yaradılması, ortaq risklərin idarə edilməsi mexanizmlərinin formalaşdırılması nəzərdə tutulur.

## Rəqəmsal Logistika Platforması qurulacaq

Azərbaycanda beynəlxalq ticarət əməliyyatlarının rəqəmsallaşdırılması istiqamətində də mühüm addım atılmaqdadır. Bu tədbirlərin mühüm tərkib hissəsi kimi Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi tərəfindən beynəlxalq yükdaşıma əməliyyatları ilə bağlı proseslərin rəqəmsallaşdırılması, məlumatların xarici ticarət iştirakçıları ilə aidiyyəti dövlət orqanları arasında real vaxt rejimində inteqrasiyasının təmin edilməsi nəzərdə tutulur. İnteqrasiya edilmiş rejim ölkəmizin logistika sahəsində rəqabət qabiliyyətini gücləndirmək məqsədilə digər qurumların iştirakı ilə Rəqəmsal Logistika Platformasını (DLP) təmin edəcək. DLP idxal, ixrac və tranzit əməliyyatlarını vahid "elektron bir pəncərə" üzərindən idarə etməyi hədəfləyən innovativ platformadır. Prosedur və fəaliyyətlərin mümkün dərəcədə sadələşdirilməsini ehtiva edən informasiya sistemi ilk növbədə xarici iqtisadi fəaliyyətdə mövcud olan və kağız üzərində aparılan çoxsaylı pərakəndə və səmərəsiz proseslərin aradan qaldırılmasını, xarici ticarət iştirakçıları və aidiyyəti dövlət orqanları arasında rəqəmsal mühitdə məlumat mübadiləsinin və inteqrasiyaların təmin edilməsini, eləcə də proseslərin xarici ticarət iştirakçıları üçün əlçatan və vahid mərkəzdən idarə oluna bilməsini nəzərdə tutur.

Qeyd edək ki, xarici iqtisadi fəaliyyət çərçivəsində idxal, ixrac və tranzit əməliyyatlarına dair sənədlərin əldə olunması üçün müxtəlif qurumlara ayrıca müraciət tələb olunur ki, bu da həm elektron, həm də fiziki prosedurların uzanmasına, vaxt itkisinə və eyni məlumatların təkrar təqdim edilməsinə səbəb olur. Bu baxımdan mal və nəqliyyat xidmətlərinin fasiləsiz hərəkətinin təmin olunması, sərhəd-keçid və nəqliyyat prosedurlarının beynəlxalq standartlara uyğunlaşdırılması üçün sadələşdirilmiş, istifadəçi yönümlü, "vahid pəncərə" prinsipi ilə işləyən, qurumların məsuliyyətini ayrı-ayrılıqda müəyyən edən və icra keyfiyyətini, həmçinin sürətini ölçmə imkanı verən bir nəqliyyat-logistika platformasının yaradılması təxirəsalınmaz tələb idi.

Qeyd olunan çağırışlara uyğun hazırlanacaq DLP informasiya sistemi nəqliyyat və logistika sahəsi üzrə fəaliyyətlərin şəffaflaşdırılması, sadələşdirilməsi, həmin fəaliyyətlərin operativliyinin, səmərəliliyinin və proqnozlaşdırma keyfiyyətinin artırılması, o cümlədən yük axınlarının "ağıllı" idarə edilməsi, daşınan yüklərin bütün hərəkət marşrutu boyunca izlənilməsi və yükdaşıma müddətlərinin optimallaşdırılması üçün əlaqəli proseslərin və sənəd mübadiləsinin rəqəmsallaşdırılmasını, aidiyyəti dövlət orqanlarının idxal-ixrac və tranzit əməliyyatlarına dair monitorinqlər aparmasını və statistik məlumatların emal olunmasını nəzərdə tutur.




## "Qarabağ Bəyannaməsi"nin hədəfləri gerçəkləşir

Yeri gəlmişkən, idxal-ixrac, tranzit, nəqliyyat və logistika üzrə fəaliyyətin rəqəmsallaşdırılması türk dövlətlərində də strateji konsepsiyasının mühüm prioritetlərinin reallaşması deməkdir. Türk Dövlətləri Təşkilatının (TDT) yeni logistika konsepsiyasına əsasən, ölkələr arasında rəqəmsal azad ticarət rejiminin təmin olunması məqsədilə qarşılıqlı olaraq ticarət rejiminin yumşaldılması və idxal-ixrac mallarının gömrük və tranzit rüsumlarının aşağı salınması nəzərdə tutulur. 2022-ci il noyabrın 11-də Səmərqənddə keçirilən Zirvə Görüşündə türk dövlətləri sadələşdirilmiş gömrük rejiminin yaradılması barədə niyyətini bəyan edib. TDT ölkələri tərəfindən imzalanan "Türk Dövlətləri Təşkilatının hökumətləri arasında sadələşdirilmiş gömrük dəhlizinin yaradılması haqqında" Sazişdən irəli gələn hüquqi çərçivə ötən 2 il ərzində müvafiq orqanlar arasında hazırlandıqdan sonra 2024-cü il noyabrın 29-da qüvvəyə minib.

2024-cü ilin iyul ayında Şuşa şəhərində imzalanmış "Qarabağ Bəyannaməsi"nin əsas bəndlərindən biri isə TDT-nin kollektiv ticarət alyansının yaradılması və bu məqsədlə gömrük rejimlərində asan preferensial (qarşılıqlı güzəşt) qaydaların tətbiqi ilə bağlıdır. Preferensial sazişlərin məqsədi mallar üzrə tariflərin azaldılması və ya ləğv olunması, iqtisadi əlaqələrin və ticarətin genişləndirilməsi və təşviq edilməsi, ədalətli rəqabət üçün əlverişli şərtlərin yaradılması, ticarətin davamlı artımı üçün proqnozlaşdırıla bilən və təhlükəsiz mühitin yaradılmasını nəzərdə tutur. Bu baxımdan tərəflər arasında mərhələli şəkildə idxal və ixrac olunan bir sıra məhsullarının idxalına tətbiq edilən gömrük rüsumlarını qarşılıqlı olaraq azaldılması istisna deyil. Nəticədə, sadələşdirilmiş gömrük dəhlizinin yaradılması sayəsində "Rəqəmsal İpək Yolu" layihəsi də tam başa çatacaq. Bu dəhlizlərin fəaliyyətə başlaması isə türk dövlətləri arasında əmtəə dövriyyəsinin də artmasına səbəb olacaq.

Yuxarıda qeyd edilən tədbirlərin hər biri "Bir pəncərə" informasiya sistemi sayəsində xarici ticarət əməliyyatları, daşınan yüklərin hərəkəti, sərhədkeçmə prosedurları və s. əməliyyatların tamamilə rəqəmsallaşdırılacaq.

Beləliklə, idxal-ixrac, tranzit və nəqliyyat əməliyyatlarının rəqəmsallaşdırılması və vahid informasiya sisteminin yaradılması sayəsində "ağıllı" idarəetmə təmin olunacaq.

*E.CƏFƏRLİ*

# YAP Sədrinin müavini Tahir Budaqov Türkiyədə səfərdə olub















Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) dəvəti ilə 15 dekabr - Dünya Türk Dili Ailəsi Günü münasibətilə Ankara şəhərində keçirilən tədbirdə iştirak edib.

Türkiyə Respublikasının Prezidenti, AK Parti Sədri Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə keçirilən tədbirdə partiyanın "Türk Dünyası Strateji Baxış Sənədi" təqdim olunub.

Tədbirdə çıxış edən AK Parti Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini, Türkiyə Böyük Millət Məclisinin (TBMM) üzvü Kürşad Zorlu konsepsiyada qarşıya qoyulan əsas hədəfin türk dövlətləri arasında bütün səviyyələrdə əlaqələrin daha da möhkəmləndirilməsi və Türk dünyasının ortaq gələcəyinin formalaşdırılması olduğunu bildirib.

Daha sonra Prezident Rəcəb Tayyib Ərdoğan çıxış edərək beynəlxalq müstəvidə, o cümlədən Türk dünyasında sülh və təhlükəsizlik naminə işbirliyinin önəmini nəzərə çatdıraraq xalqların rifahı və ölkələrin tərəqqisi naminə beynəlxalq hüquq normalarına əsaslanan məqsədyönlü siyasətin vacibliyinə toxunub.

Dövlət başçısı çıxışında Türk Dövlətləri Təşkilatının yaradılması və çoxşaxəli fəaliyyətinin Türk dünyasında birlik və əməkdaşlığın gücləndirilməsində müstəsna rolunu qeyd edərək "Türk Dünyası Strateji Baxış Sənədi"nin qəbul olunması ilə bu istiqamətdə çox mühüm bir addım atıldığını vurğulayıb. "Türk xalqlarının çoxəsrlik bilik və təcrübəsini özündə ehtiva edən bu sənəd növbəti yüzilliyin hədəflərinin gerçəkləşdirilməsində önəmli bir bələdçi rolunu oynayacaqdır", - deyə Rəcəb Tayyib Ərdoğan vurğulayıb.

O, ortaq türk əlifbası ilə belə bir konseptual sənədin hazırlanmasını AK Partinin qlobal məsuliyyət hissi ilə Türk dünyasında həmrəyliyi gücləndirmək iradəsinin konkret təzahürü adlandırıb: "Türk dövlətləri arasında inteqrasiyanı dərinləşdirməyi və institusional çərçivədə çoxşaxəli əməkdaşlığı gücləndirməyi hədəfləyirik. İqtisadi inkişafa, mənəvi həmrəyliyə nail olmaq, strateji əməkdaşlığı və regional təhlükəsizliyi təmin etmək gələcəyə baxışımızın mərkəzində duran əsas məqsədlərdir. Sənədi hazırlayarkən mövcud beynəlxalq müqavilələri, ikitərəfli və çoxtərəfli əməkdaşlığı, qlobal prosesləri nəzərə almışıq. Eyni zamanda, Türk dünyasında siyasi və iqtisadi transformasiyaları, ölkələrimizin xarici siyasət perspektivlərini diqqət mərkəzində saxlayaraq milli maraqları rəhbər tutmuşuq".

Rəcəb Tayyib Ərdoğan mədəni əməkdaşlıqdan iqtisadi inteqrasiyaya, enerji təhlükəsizliyindən çoxşaxəli nəqliyyat şəbəkələrinə, təhsildən gənclər siyasətinə qədər geniş sahələri ehtiva edən sənədin türk dövlətlərinin mövcud potensialından səmərəli istifadə etməyi hədəflədiyini vurğulayıb: "Türk dünyasının gələcəyi ilə bağlı planlar ümumi təkliflərdən konkret layihələrə çevrilir. Biz koordinasiyanı gücləndirən, qərar qəbuletmə mexanizmlərini sürətləndirən və birgə layihələrin həyata keçirilməsini mümkün edən idarəetmə modelini təqdim edirik. Bu addımlar sayəsində əməkdaşlığımız daha sistemli olacaq, qərarlar operativ və effektiv şəkildə icra ediləcək".

Türkiyə Prezidenti BMT-nin mədəniyyət agentliyi olan UNESCO-nun Səmərqənddə keçirilən Baş Konfransının qərarı ilə 15 dekabrın Dünya Türk Dili Ailəsi Günü elan olunmasının əhəmiyyətinə toxunaraq bu xüsusda türk dövlətlərinin qarşısında duran vəzifələrə diqqəti cəlb edib.

Səfər çərçivəsində YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov AK Parti Sədrinin Türk dövlətləri ilə əlaqələr üzrə müavini, TBMM-in üzvü Kürşad Zorlunun adından tədbir iştirakçılarının şərəfinə verilən rəsmi ziyafətdə də qatılıb.

# Bəşəriyyət üçün dialoqun 20 ili...

## Nizami Gəncəvi Beynəlxalq Mərkəzi BMT Sivilizasiyalar Alyansının 11-ci Qlobal Forumuna tərəfdaşlıq edib

Səudiyyə Ərəbistanı Krallığının paytaxtı Ər-Riyad şəhərində Birləşmiş Millətlər Təşkilatının (BMT) Sivilizasiyalar Alyansının (UNAOC) 11-ci Qlobal Forumu keçirilib. 14-15 dekabrda "UNAOC: Bəşəriyyət üçün dialoqun 20 ili - Çoxqütblü dünyada qarşılıqlı hörmət və anlaşmanın yeni dövrünə doğru" şüarı ilə keçirilən forumda dövlət və hökumət başçıları, beynəlxalq və regional təşkilatların rəhbərləri, dini liderlər, eləcə də özəl sektor, gənclər, incəsənət, idman, akademik dairələrin təmsilçiləri və media nümayəndələri iştirak ediblər. Forum Alyansın yaranmasının 20 illiyinə və üçüncü onilliyə daxil olması münasibətilə davamlı sülhün təmin edilməsi istiqamətində gələcək fəaliyyət planının müəyyənləşdirilməsinə həsr olunub.

### Forumda Azərbaycanı kimlər təmsil edib?

Tədbirdə Azərbaycanın mədəniyyət naziri Adil Kərimlinin rəhbərlik etdiyi nümayəndə heyəti, Qafqaz Müsəlmanları İdarəsinin sədri şeyxülislam Allahşükür Paşazadə və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Ramin Məmmədov iştirak ediblər.

Forumun açılış mərasimində Səudiyyə Ərəbistanı Krallığının xarici işlər naziri Feysəl bin Fərhan Al Səud, BMT-nin Baş katibi Antonio Quterreş, BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi, BMT-nin İslamofobiya məsələləri üzrə xüsusi nümayəndəsi Migel Moratinos, İspaniyanın inklüzivlik, sosial təhlükəsizlik və miqrasiya naziri Elma Saiz Delqado və Tükiyənin keçmiş Baş naziri, Türkiyə Böyük Millət Məclisinin sabiq sədri Binəli Yıldırımın çıxışları dinlənilib.

İki gün davam edən forum çərçivəsində təşkil olunan sessiyalarda "Çoxqütblü dünyada məsuliyyətli liderlik: inklüziv dialoq vasitəsilə çoxtərəfliliyin təşviqi", "Bəşəriyyətə inam: dinlərarası dialoq sülhə və vahid bəşəriyyətə körpü kimi", "Rəqəmsal reallıqlardan real dünyaya: dipfeyklərə, süni intellektlə idarəolunan dezinformasiyaya və yeni alqoritmlərlə gücləndirilmiş nifrətə qarşı mübarizə", "İnsan ləyaqətinin qorunması və mənsubiyyətin təşviqi: miqrasiya hekayələrinin yenidən qurulması və şəhərlərin hamı üçün inklüziv məkanlar kimi yenidən düşünülməsi" və digər mövzular müzakirə edilib.

### Şeyxülislam: Ölkəmiz işğaldan azad edilən Qarabağda dini-mənəvi irsi dirçəldir

Şeyxülislam A.Paşazadə İordaniya şahzadəsi Əlahəzrət Rim Alinin moderatorluq etdiyi "Bəşəriyyətə İnam: Dinlərarası Dialoq Sülh və Bir Bəşəriyyət yoluna aparan körpüdür" adlı plenar sessiyada çıxış edib. Azərbaycan Prezidenti İlham Əliyevin xeyir-dualarını və ən xoş arzularını forum iştirakçılarına yetirən QMİ sədri A.Paşazadə BMT Sivilizasiyalar Alyansının iki onillik fəaliyyəti ilə özünü bəşəriyyətin mənafeyinə xidmət edən, qlobal problemlərin həllində dövlət, ictimaiyyət və din nümayəndələrinin birgə əməkdaşlığının inkişafına töhfə verən mühüm beynəlxalq platforma olaraq təsdiq etdiyini və qurumun sülh və gələcəyə dair qlobal problemlərin həlli yönündə nailiyyətlərinin təqdirəlayiq olduğunu vurğulayıb.

Şeyxülislam, müxtəlif mədəniyyət və sivilizasiya nümayəndələri arasında körpülərin qurulması, birgəyaşayışı əks etdirən dəyərli tarixi təcrübəyə, dinlərarası tolerantlıq, məzhəblərarası anlaşma modelinə malik Azərbaycan dövlətinin BMT Sivilizasiyalar Alyansı ilə bəşəri mənafelər naminə əməkdaşlığı yüksək səviyyədə olmasından məmnunluğunu ifadə edib. O bildirib ki, Azərbaycanda keçirilən ənənəvi Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları Azərbaycan Prezidentinin müəllifi olduğu Bakı Prosesinin tərəfdaşı olan Sivilizasiyalar Alyansı ilə birgə əməkdaşlığımızın gözəl nəticələridir. A.Paşazadə Azərbaycanın BMT-nin məlum qətnamələri əsasında işğaldan azad etdiyi Qarabağda vandalizmə məruz qalmış dini-mənəvi irsini dirçəltdiyini, ölkəmizin bütün dinlərə məxsus məbədləri bərpa və yenidən quraraq bu gün bölgədə və dünya müstəvisində sülh gündəliyində fəal iştirakını, insan həmrəyliyinə xidmət edən təşəbbüslərin önündə getdiyini qeyd edib.








### Azərbaycanda tolerantlıq mühiti barədə məlumat verilib

Eyni zamanda, forum çərçivəsində UNAOC Dostlar Qrupunun Yüksək Səviyyəli Görüşü keçirilib. Görüşdə çıxış edən mədəniyyət naziri Adil Kərimli Azərbaycanda tarixən formalaşmış tolerantlıq mühiti barədə məlumat verib. Azərbaycan Prezidenti İlham Əliyevin "Müxtəlif millətlərin, etnik qrupların və dinlərin nümayəndələrinin qarşılıqlı dialoq və anlaşma şəraitində birgəyaşayışı ölkədə vətəndaş həmrəyliyi və sabitliyin təmin olunması baxımından mühüm əhəmiyyət daşıyır" fikirlərini diqqətə çatdıran nazir mədəniyyətlərarası dialoqun təşviqi, multikultural dəyərlərin qorunması və mədəni diplomatiyanın beynəlxalq əməkdaşlığın inkişafında rolunu vurğulayıb.

Forumun yüksək səviyyədə təşkilinə görə Səudiyyə Ərəbistanı Krallığı Hökumətinə təşəkkür edən Adil Kərimli UNAOC-un qlobal dialoq və qarşılıqlı anlaşmanın möhkəmləndirilməsində mühüm beynəlxalq platforma olduğunu xüsusi qeyd edib. Çıxışda Azərbaycanın UNAOC ilə əməkdaşlıq çərçivəsində dinlərarası dialoqun təşviqi istiqamətində həyata keçirdiyi təşəbbüslərə toxunulub.

Qeyd edək ki, Nizami Gəncəvi Beynəlxalq Mərkəzi (NGBM) BMT Sivilizasiyalar Alyansının 11-ci Qlobal Forumuna tərəfdaşlıq edib. Mərkəzin yaydığı məlumatda bildirilib ki, forum müxtəlif sivilizasiyalar arasında qarşılıqlı anlaşma, dialoq və əməkdaşlığın gücləndirilməsinə həsr olunmuş yüksəksəviyyəli platforma kimi dünya liderlərini, siyasətçiləri və ekspertləri bir araya gətirib. NGBM foruma geniş tərkibdə qatılıb. Forum boyunca Mərkəzin üzvləri müxtəlif sessiyalarda çıxış edərək, birgəyaşayış, dinlərarası və mədəniyyətlərarası dialoq vasitəsilə sülhün təşviqi, terrorizm, şəhərsalmanın inkişafı, rəqəmsal dövrdə dezinformasiyanın yaratdığı çağırışlar, süni intellektin təsiri, həmçinin çoxtərəfli dünyanın tələblərinə cavab verən liderlik modelləri barədə fikirlərini bölüşüblər.

### NGBM təmsilçiləri bir sıra görüşlər keçirib

Tədbir çərçivəsində Mərkəzin Baş katibi yüksəksəviyyəli görüşlər də keçirib. O, "UNCTAD"-ın Baş katibi Rebeka Qrinspan, Türkiyənin sabiq Baş naziri və Mərkəzin üzvü Binəli Yıldırım, həmçinin BMT Sivilizasiyalar Alyansının Ali Nümayəndəsi Migel Angel Moratinos ilə görüşərək 2026-cı ildə keçiriləcək XIII Qlobal Bakı Forumuna hazırlıq haqqında müzakirələr aparıb. Bununla yanaşı, Mərkəzin nümayəndələri Səudiyyə Ərəbistanının Kral Faysal İslam Araşdırmalar Mərkəzinin İdarə Heyətinin sədri Şahzadə Turki Al Faysal Al Saud ilə görüşüblər. Görüş zamanı Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin 2026-cı ildə keçirəcəyi beynəlxalq tədbirlər, qarşıdakı əməkdaşlıq planları və birgə təşəbbüslərin genişləndirilməsi imkanları müzakirə olunub.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən, dahi Azərbaycan şairi Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 2012-ci il sentyabrın 30-da böyük mütəfəkkirin Vətəni Gəncədə keçirilmiş xüsusi toplantıda təsis edilib. Hazırda Mərkəz qlobal problemlərin həlli yollarını araşdıran və bu barədə dünya ictimaiyyətini məlumatlandıran mühüm beynəlxalq təsisata çevrilib. Məhz bunun nəticəsidir ki, Mərkəzin təşkil etdiyi tədbirlərə maraq ildən-ilə artmaqdadır. Azərbaycanın belə forumlara ev sahibliyi etməsi, ildən-ilə iştirakçıların sayında nəzərəçarpan artım ölkəmizə olan diqqət və etimadın, Prezident İlham Əliyevin siyasətinə dəstəyin ifadəsi kimi dəyərləndirilir.

*N.BAYRAMLI*

## Cənubun səsi Bakıda...

### Qlobal Cənub QHT Platformasının rolu və əhəmiyyəti

# İnklüziv vətəndaş cəmiyyəti səfərbərliklərindən biri

Demokratiyanın inkişafı saydığımız XXI əsrin 25 ilini arxada qoysaq da, dünyanın bir çox ölkələri ötən əsrlərin "yadigarları"ndan yaxa qurtara bilməyib. Söhbət müstəmləkəçilik, insan haqlarının tapdanması, cəmiyyətlərin hələ də hegemon dövlətlərin əsarətində olduğundan gedir. Təəssüf ki, Cənubda yaşayan ölkələrin böyük bir qismi hələ də müstəmləkəçilik və yoxsulluq kimi çətinliklərlə qarşı-qarşıyadır. Bu halların qarşısının alınması üçün Azərbaycan bütün sahələrdə həmin dövlətlərin yanında olub, bir sıra beynəlxalq təşəbbüsləri həyata keçirib. Ölkəmizin bu müstəvidə həyata keçirdiyi tədbirlər, xüsusilə də, QHT-lər, vətəndaş cəmiyyəti institutlarımızın bu tipli platformaların yaradılmasında rolu kifayət qədər yüksəkdir. Zaman-zaman Azərbaycan QHT-ləri müxtəlif beynəlxalq əhəmiyyətli təşəbbüsləri irəli sürüblər.

### Dünya miqyasında dəstək qazanan təşəbbüs

Xatırladaq ki, bu il aprelin 28-də Bakıda "Həmrəy fəaliyyət: yeni və ədalətli dünya üçün Qlobal Cənub QHT-lərinin gücləndirilməsi" adlı forum işə başlamışdı. Tədbir çərçivəsində isə Qlobal Cənub QHT Platforması təsis olunub. Platformanın yaradılması təşəbbüsü ilə 2024-cü ilin noyabrında - COP29 çərçivəsində Azərbaycan Milli QHT Forumu çıxış edib. Təşəbbüs qısa müddətdə beynəlxalq rezonans doğurub. Nəticədə, COP29 QHT Koalisiyası Azərbaycan Milli QHT Forumu qarşısında bu platformasının təsisatlandırılmasına dair məsələ qaldırıb. Azərbaycan QHT-lərinin təşəbbüsü ilk dəfə dünya miqyasında belə bir qlobal dəstək qazanıb.

Qlobal Cənub QHT Platforması bu strateji coğrafiyada ölkələrin üzləşdikləri problemlərin beynəlxalq səviyyədə eşidilməsinə güclü dəstək verməyi, BMT daxil olmaqla, beynəlxalq təşkilatlarda vahid mövqedən çıxış etməyi, qlobal koordinasiyanı aparmağı nəzərdə tutur. Bu, ölkələrin üzləşdiyi ədalətsizliyə - yoxsulluq, iqlim dəyişmələrinin fəsadları, müstəmləkəçilik keçmişi, rəqəmsal uçurum, ticarət bərabərsizliyi və digər məsələlərə qarşı birgə səylərlə mübarizə aparmaq platformasıdır.

### BMT-nin UNOSSC ofisinin rəsmi saytında...

Qlobal Cənub QHT Platforması (GSNP) son illərin ən inklüziv vətəndaş cəmiyyəti səfərbərliklərindən biri kimi qiymətləndirilib. Bu barədə BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin (UNOSSC) rəsmi saytında məlumat yerləşdirilib.

BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin Azərbaycan QHT-lərinin qlobal təşəbbüsünü dəyərləndirərək öz profili üzərindən yayması ilk dəfədir baş verir.

Qeyd edək ki, dünya əhalisinin 80 faizinin yaşadığı - Latın Amerikası, Afrika, Asiya, Okeaniya və Avstraliyanı əhatə edən Qlobal Cənubun çox zaman beynəlxalq qərarların qəbulunda kənarda qalması, həlledici anlarda öz taleyinin sahibi ola bilməməsi narahatlıq doğurur. Mövcud dezinteqrasiya prosesləri fonunda qarşılıqlı etimad, fayda, bərabərlik, məsləhətləşmə, mədəni müxtəlifliyə hörmət prinsipləri ilə əməkdaşlıq formatlarının yaradılması heç vaxt olmayan qədər aktuallıq qazanıb. Yeni dünya düzəninin formalaşdığı, ayırıcı xətlərin təzədən çəkildiyi bir dövrdə yaranmış Qlobal Cənub QHT Platforması qlobal təklənməyə qarşı birləşmək zərurətinin aydın təzahürü kimi olduqca əhəmiyyətlidir.




### 116 ölkənin vətəndaş cəmiyyətinin iştirakı ilə...

Qoşulmama Hərəkatı regionunda QHT-ləri birləşdirən vahid şəbəkə indiyədək mövcud olmayıb. İlk dəfədir ki, Azərbaycan vətəndaş cəmiyyətinin irəli sürdüyü təşəbbüs dünya ölkələrinin 3/2 hissəsini əhatə edən nəhəng regiondan beynəlxalq dəstək qazanıb və 116 ölkədən QHT-lər bu ideya naminə Bakıya toplaşaraq birgə platforma təsis edib. Qoşulmama Hərəkatında təmsil olunan 120 ölkədən 116-nın vətəndaş cəmiyyəti nümayəndələrinin bu tərkibdə yer alması nəinki Azərbaycan, Qlobal Cənub miqyasında rast gəlinməyən xüsusi hadisədir. Qoşulmama Hərəkatının gənclər və parlament şəbəkələri olsa da, QHT şəbəkəsi yox idi. Qlobal Cənub QHT Platforması Qoşulmama Hərəkatının QHT şəbəkəsi olmağa layiqdir. Bu platformanın yaradılış ruhu 70 il əvvəl İndoneziyada qəbul edilmiş tarixi "Bandunq prinsipləri"nə tam uyğundur. Bu prinsiplər dövlətlərin daxili işlərinə qarışmanı rədd edir, dinc, ədalətli dünya nizamının yaradılmasını, ölkələrin suverenliyinə, ərazi bütövlüyünə hörmət bəslənilməsini, xalqların bərabərliyinin təmin olunmasını təşviq edir, qarşılıqlı maraq və əməkdaşlığın, iqtisadi rifahın gücləndirilməsi üçün səfərbərliyə çağırır.

Azərbaycan ölkələrin daxili işlərinə qarışmamaq prinsipinə əməl edən, xalqların siyasi sistemlərinə, mədəni, etnik, dini fərqliliklərinə hörmət edən, dinlərarası, sivilizasiyalararası, mədəniyyətlərarası dialoqu daim güclü təşviq edən ölkədir.

Onu da qeyd edək ki, bu ilin mayında Nyu-Yorkda BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin direktoru Dima Al-Khatib Bakıda Qlobal Cənub QHT Platformasının yaradılmasını alqışlayan açıqlama ilə çıxış etmişdi. O, BMT-nin Cənub-Cənub Əməkdaşlığı üzrə Ofisinin Qlobal Cənub QHT Platforması ilə sıx əməkdaşlıqda maraqlı olduğunu diqqətə çatdırmışdı.

UNOSSC-un rəsmi saytında GSNP barədə yerləşdirdiyi məlumat bir daha nümayiş etdirir ki, bu platformanın fəaliyyəti qısa müddətdə qlobal diqqət qazanıb.

*Sahib*

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Məqalə "Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi"nin maliyyə dəstəyi ilə "Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu" istiqaməti üzrə hazırlanmışdır**

# İnvestisiya qoyuluşları artıb

Azərbaycan iqtisadiyyatına daxili və xarici kapital qoyuluşlarında artım dinamikası davam etməkdədir. 2025-ci ilin yanvar-noyabr aylarında əsas kapitala 16 milyard 658,9 milyon manat məbləğində investisiya yönəldilib ki, bu da əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 3 faiz çoxdur. Neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 8,5 faiz azalsa da, qeyri neft-qaz sektoruna yönəldilmiş investisiyaların həcmi 8,3 faiz artaraq ümumi sərmayə axıcılığını təmin edib. Bu dövr ərzində istifadə olunmuş investisiyanın 8,4 milyard manatı və ya 50,6 faizi məhsul istehsalı sahələrinə, 5,6 milyard manatı (33,7 faiz) xidmət sahələrinə, 2,6 milyard manatı (15,7 faiz) isə yaşayış evlərinin tikintisinə sərf olunub. Əsas kapitala yönəldilmiş investisiyaların 12,9 milyard manatı və ya 78 faizini daxili investisiyalar təşkil edib. Həmin sərmayələrin 76,2 faizi bilavasitə tikinti-quraşdırma işlərinin yerinə yetirilməsinə sərf olunub.

### 4,7 milyard dollar birbaşa xarici investisiya yatırılıb

Azərbaycana yatırılan birbaşa xarici investisiyaların həcmində də əhəmiyyətli artım qeydə alınıb. Cari ilin yanvar-sentyabr aylarında Azərbaycana xarici rezidentlər tərəfindən 4 milyard 736 milyon dollar birbaşa investisiya yatırıb. Sərmayə potfelində birinci yeri 1 milyard 243 milyon dollarla Böyük Britaniya, növbəti yerləri 632 milyon dollarla Türkiyə, 543 milyon dollarla Cənubi Kipr, 384 milyon dollarla İsveçrə və 272 milyon dollarla İran tutub. Eləcə də xarici yatırım edən dövlətlər sırasında BƏƏ, Rusiya, ABŞ, Yaponiya, Macarıstan, Fransa və Hindistan sərmayədarlarının payı artıb.

Qeyd edilən dövrdə Azərbaycanın özü də sərmayədar ölkə kimi xarici ölkələrin iqtisadiyyatına 2 milyard 38 milyon dollar dollar birbaşa investisiya yatırıb. Xaricə yönəldilən investisiyalarda əsas istiqamət İsrail olub və bu ölkəyə 542,6 milyon dollar sərmayə yatırılıb ki, bu da əsasən "Tamar" qaz yatağı layihəsi ilə bağlıdır. Türkiyəyə 289 milyon dollar, Birləşmiş Ərəb Əmirliklərinə 250 milyon dollar, Böyük Britaniyaya 176 milyon dollar, İtaliyaya isə 118 milyon dolları birbaşa xarici investisiya yatırılıb.

### Təşviqedici sərmayə mühiti təmin olunub

Azərbaycan iqtisadiyyatına sərmayə qoyuluşlarının artmasında ən mühüm amillərdən biri ölkədə təmin edilmiş sağlam və münbir investisiya mühitidir. Bu istiqamətdə respublikamızda həyata keçirilən hüquqi və institisional islahatlar mühüm rol oynamaqdadır. Azərbaycan xarici investorlarla əməkdaşlığa xüsusi önəm verən, dünyanın aparıcı şirkətləri ilə birlikdə həm ölkəmiz, həm də region üçün mühüm əhəmiyyət kəsb edən layihələrə imza atıb. Prezident İlham Əliyevin 2018-ci il yanvarın 18-də imzaladığı "İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamına əsasən, ölkə iqtisadiyyatına investisiya axınını cəlb etmək üçün Azərbaycanda əlverişli biznes mühitinin təmin edilməsi əsas prioritetlərdən biri kimi müəyyən edilib. Bu ssenariyə uyğun olaraq biznes mühitinin əlverişliliyinin daha da artırılması və biznesə başlama prosedurlarının sadələşdirilməsi üçün zəruri tədbirlər görülüb ki, bu da xarici sahibkarların fəaliyyətində yeni mərhələnin başlanmasına səbəb olub.

Həyata keçirilmiş sosial-iqtisadi islahatlar və qlobal iqtisadiyyata inteqrasiya aparıcı beynəlxalq şirkətlər üçün ölkəmizdə geniş və əlverişli imkanlar yaradılıb. 2024-cü ildə investorların hüquq və mənafelərinin qorunması, yerli və xarici sahibkarlara əlverişli münbit şəraitinin yaradılması məqsədilə Rəqabət Məcəlləsinin qüvvəyə minməsi sərmayə cəlbediciliyinin artırılması üçün yeni imkanlar yaradıb.



### Son 22 ildə 180 milyard dollar həcmində xarici investisiya

İnvestorların hüquq və mənafelərinin qorunması, mülkiyyətin toxunulmazlığı, yerli və xarici sahibkarlara eyni iş şəraitinin yaradılması, "İnvestisiya fəaliyyəti haqqında" və "Xarici investisiyaların qorunması haqqında" qanunların qəbul edilməsi, Rəqabət Məcəlləsinin qüvvəyə minməsi sərmayə cəlbediciliyini artırıb. Azərbaycan hökumətinin bir sıra xarici ölkələrlə ikiqat vergi tutmanın aradan qaldırılması, investisiyaların təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalaması da investisiya qoyuluşunu təşviq etməkdədir. Azərbaycan beynəlxalq müstəvidə ikitərəfli əməkdaşlıq çərçivəsində 30-dək ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalayıb ki, həmin dövlətlərin investorlarının ölkəmizin iqtisadiyyatında potensial sərmayədar kimi xüsusi payı artmağa başlayıb.

Beləliklə, qeyd edilən təşviqedici tədbirlər, dövlətin xarici investorlara olan dəstəyi biznes sektorunun və beynəlxalq maliyyə qurumlarının Azərbaycana olan investisiya marağını yüksəldir. Ümumilikdə, 2003-2024-cü illər ərzində ölkə iqtisadiyyatına yönəldilən investisiyaların ümumi həcmi təxminən 320 milyard dolları təşkil edib ki, onun 180 milyard dolları xarici investisiyalardır.

**Azərbaycan beynəlxalq müstəvidə ikitərəfli əməkdaşlıq çərçivəsində 30-dək ölkə ilə sərmayələrin təşviqi və qarşılıqlı qorunması haqqında sazişlər imzalayıb ki, həmin dövlətlərin investorlarının ölkəmizin iqtisadiyyatında potensial sərmayədar kimi xüsusi payı artmağa başlayıb**

Məhz bu tədbirlər sayəsində Azərbaycanın beynəlxalq miqyasda investisiya cəlbediciliyi yüksəlib. "Standart & Poor's" və "Moods" reytinq agentlikləri Azərbaycanın investisiya və kredit reytinqini artıraraq "BB+" səviyyəsinə qaldırıb. Eyni zamanda "Fitch Ratings" agentliyi

### Azərbaycanın investisiya reytinqi "BBB" səviyyəsinə yüksəlib

Azərbaycanın yerli və xarici valyutada uzunmüddətli suveren investisiya reytinqini "pozitiv" proqnozu ilə "BBB" səviyyəsində təyin edib. Bütün bunlar bir daha göstərir ki, Azərbaycan inkişaf etmiş ölkə kimi dünyanın aparıcı investorlarının daim diqqət mərkəzindədir.

Beynəlxalq Valyuta Fondu (BVF) dünya ölkələrində investisiya cəlbediciliyi mühiti ilə bağlı hesabatında Azərbaycanı ən yaxşı ölkələr qrupunda qərarlaşdırıb. Belə ki, ölkəmiz ən yaxşı investisiya mühitinə malik "Top-7"qrupunda yer alıb. BVF-nin reytinqində xarici investorlar üçün münbit iş şəraitinin yaradılması, bütün hüquqi təminatlarla əhatə olunması təqdir edilir.

Hazırda Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mindən artıqdır. Təkcə 2024-cü ildə Azərbaycanda qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin təxminən 900-ü xarici investisiyalı şirkətlər olub.

### Azad ərazilərdə sərmayəçilər üçün güzəştlər

Azərbaycanın müasir inkişaf gündəliyində əsas investisiya sahələri kimi süni intellekt və "yaşıl enerji"yə investisiya cəlb olunması əsas strateji xətt kimi müəyyən edilib. Resurs zənginliyi ilə diqqəti cəlb edən işğaldan azad edilmiş ərazilərə xarici investorların marağı böyük olduğundan çoxsaylı iqtisadi stimullar, güzəştlər tətbiq olunmaqdadır. Dövlət başçısının "İşğaldan azad edilmiş ərazilərdə iqtisadi inkişafın sürətləndirilməsi ilə bağlı bəzi tədbirlər haqqında" sərəncamına əsasən, azad ərazilərdə uçotda olan və fəaliyyət göstərən sahibkarlıq subyektləri 2023-cü il yanvarın 1-dən etibarən 10 il müddətinə mənfəət (gəlir), əmlak, torpaq və sadələşdirilmiş vergidən, eləcə də sosial vergilərdən azad olunublar ki, bu amil həmin bölgəyə xüsusi axınları sürətləndirəcək.

**Hazırda Azərbaycan iqtisadiyyatının müxtəlif sahələrində fəaliyyət göstərən xarici investisiyalı şirkətlərin sayı 7 mindən artıqdır. Təkcə 2024-cü ildə Azərbaycanda qeydiyyata alınmış kommersiya hüquqi şəxslərin təxminən 900-ü xarici investisiyalı şirkətlər olub**

*ELBRUS CƏFƏRLİ*

# BMT-də islahatlar zamanın tələbidir!

Birləşmiş Millətlər Təşkilatında (BMT) islahatların aparılması zaman-zaman gündəmə gəlir. Bununla bağlı növbəti dəfə bugünlərdə BMT Təhlükəsizlik Şurasında (TŞ) "Beynəlxalq sülh və təhlükəsizliyin qorunması" gündəliyi çərçivəsində "Sülh naminə liderlik" mövzusunda keçirilən açıq debatda müzakirələr aparılıb.

Tədbirdə islahat çağırışı ilə Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatı yanında daimi nümayəndəsi Tofiq Musayev çıxış edib. BMT-nin sabiq Baş katibi Pan Gi Mun da müzakirələrə qatılıb. O da çıxışında BMT strukturunda zəruri islahatlara çağırış edib. BMT-nin sabiq rəsmisinin islahat çağırışı əsas etibarı ilə Təhlükəsizlik Şurasının yenilənməsi və Baş katibin rolunun gücləndirilməsi ilə bağlı olub.

## Multilateralizmin qorunmasının və BMT-nin mərkəzi rolunun vacibliyi

Hazırda dünyada kədərli proseslər izlənilir. Müzakirələrdə vurğulandığı kimi, beynəlxalq ictimaiyyət bir-biri ilə əlaqəli çoxsaylı ciddi böhranlarla üz-üzə qalıb. Açıq etiraf olunmalıdır ki, bu böhranlar müasir dünyada çoxtərəfli sistemə ciddi təzyiq göstərir. Acı reallıqdır ki, beynəlxalq birliyin nizamı pozulub. Hüquq, konvensiyalar işləmir, bir sıra hallarda güc amili önə çıxır. Eyni məzmunlu hadisələrə fərqli yanaşmalar sərgilənir. Bəzi hallarda hansısa bir ölkənin başqa bir dövlətə hücumu qətiyyətlə pislənir, ona qarşı vaxt itirilmədən iqtisadi sanksiyalar, hərbi müdaxilələr də daxil olmaqla sərt tədbirlər görülür, müxtəlif cəza mexanizmləri işə salınır. Digər hallarda isə təcavüzkar siyasət aparan və yaxud beynəlxalq hüququ, BMT qərarlarını pozan dövlətlərə qarşı belə operativ cəza tədirlərinin görülməsi heç yada da düşmür. Əksinə, bir sıra hallarda güc mərkəzləri təcavüzkar dövlətlərin yanında olur, onların BMT qərarlarını yerinə yetirməmələrinə şərait yaradırlar.

Belə ədalətsizliyin və ikili standartların mənfi fəsadları ilə ötən əsrin doxsanıncı illərinin əvvəllərində Ermənistanın işğalçılıq siyasətinə məruz qalan Azərbaycan da üzləşib. Ortada BMT-nin Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılmasını özündə ehtiva edən 4 qətnaməsi olsa da, işğalçılıq siyasəti düz 30 il davam etdi. Bu, bir tərəfdən beynəlxalq hüququn işləmədiyinin, digər tərəfdən isə BMT-nin gücsüzlüyünün göstəricisi idi. Nəticə etibarı ilə, Azərbaycan tarixi ədaləti və BMT-nin qətnamələrinin icrasını özü təmin etdi. Halbuki, BMT real təsir imkanlarına malik olan güvənli bir təşkilat kimi fəaliyyət göstərməlidir və onun qəbul etdiyi sənədlərin icrası mütləq qaydada təmin olunmalıdır. Azərbaycanın BMT-dəki daimi nümayəndəsi Təhlükəsizlik Şurasının 2024-cü ilin sentyabrında qəbul etdiyi sədr bəyanatına diqqət çəkib. Sənəddə Təhlükəsizlik Şurası multilateralizmin qorunmasının və BMT-nin mərkəzi rolunun vacibliyini xüsusi olaraq vurğulayıb. Həmin bəyanatda, həmçinin beynəlxalq hüquqa sadiqliyin və BMT nizamnaməsinin məqsəd və prinsiplərinin universallığının əhəmiyyəti ön plana çəkilib.

Multilateralizminin siyasi əsası Vestfal sazişi zamanından qoyulub (XVII əsr). Multilarallığa əsasən, çoxtərəfli beynəlxalq münasibətlərdə hansısa bir tərəfin üstünlüyü qəbul edilmir. Səfir bildirib ki, BMT nizamnaməsinin və beynəlxalq hüququn yanlış şərhlərinin qarşısının alınması üçün daha çox səylər göstərilməli, beynəlxalq öhdəliklər onların qəbul edildiyi mahiyyət və məzmunda icra olunmalıdır. O, Azərbaycanın yaşadığı ağrılı təcrübənin beynəlxalq hüququn və nizamnamə prinsiplərinin selektiv yanaşma və ikili standartlar olmadan, bərabər və ardıcıl şəkildə tətbiq edilməsinin vacibliyini açıq şəkildə nümayiş etdirdiyini qeyd edib. Diplomat, dövlətlərin suverenliyinə və ərazi bütövlüyünə hörmətin, eləcə də daxili işlərə qarışmama prinsipinin beynəlxalq sülhün və təhlükəsizliyin qorunması, eyni zamanda inkişafın təşviqi üçün əsas şərt olduğu vurğulanıb.

Burada yenə də respublikamızın nümunəsi diqqət çəkir. T.Musayev Azərbaycanın multilateralizm ideyalarının ardıcıl şəkildə təşviqində fəal rol oynadığını xatırladaraq, ölkənin 29-cu İqlim Dəyişikliyi Konfransına ev sahibliyi etməsini, Qoşulmama Hərəkatında, Türk Dövlətləri Təşkilatında, Asiyada Qarşılıqlı Fəaliyyət və Etimad Tədbirləri üzrə Müşavirədə və digər beynəlxalq platformalarda sədrliyini və fəal iştirakını nümunə kimi göstərib. O, həmçinin Azərbaycanın Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşündə tamhüquqlu üzvlüyünün multilateralizmə töhfə vermək imkanlarını daha da gücləndirəcəyini bildirib.



## TŞ-də daha geniş təmsilçilik təmin olunmalıdır

BMT-də multilateraliizm prinsipinin gözlənilməsinin zərurlliyi məsələnin yalnız bir tərəfidir. Eyni zamanda, qurumun funksiyalarının, öhdəliklərinin yenilənməsinə böyük ehtiyac var. BMT 1945-ci ildə yaradılıb. Bu həmin dövr idi ki, ayrı-ayrı ölkələrdə milyonlarla insanın həyatına son qoyan, humanitar, ekoloji fəlakətlərə yol açan İkinci Dünya müharibəsi təzəcə başa çatmışdı. Dünya anlayırdı ki, bəşəriyyətin nicatı həmrəylikdə, münaqişələrin, yaranan çağırışların həllinin birlikdə tapılmasında və məsuliyyətin bölüşdürülməsindədir.

Ötən 80 ildə isə dünyada çox şey dəyişib. Bu günün reallıqları tamam fərqlidir. Belə olan halda "Ümumdünya Hökuməti" yenilənməsə, onun fəaliyyəti müasir çağırışlarla necə uzlaşa bilər? Bu, mümkün də deyil. Belə çıxır ki, 80 il bundan əvvəlin reallıqları fonunda meydana gələn təşkilat dünyanın arxasınca gedir. Halbuki bu qurum drayver olmalı və çevik fəaliyyəti ilə beynəlxalq birliyin inamını qazanmalıdır.

Digər bir vacib məsələ BMT TŞ-nin genişlənməsi ilə bağlıdır. Qurumun sıralarında 193 ölkə birləşir. Ancaq təşkilatda bu qədər ölkənin təmsilçiliyi əslində formal səciyyə daşıyır. Çünki qurumda TŞ-nın 5 daimi üzvünün mövqeyi həlledicidir. Buna görə də beynəlxalq ictimaiyyətdə belə bir rəy formalaşıb ki, BMT əslində 5 böyük dövlətin maraqlarına xidmət edir. Bəs yerdə qalan 188 dövlət nə üçün 5 ölkənin diqtəsi ilə oturub-durmalıdır? TŞ-da 5 daimi üzv dövlətin bir sıra hallarda sərgilədiyi obyektivlikdən uzaq mövqe dünyada ciddi narazılıqla qarşılanır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan obrazlı şəkildə bildirib ki, dünya beşdən böyükdür. Azərbaycan da BMT-də islahatların aparılmasının tərəfdarıdır. Elə bir mexanizm yaradılmalıdır ki, qurumun qəbul etdiyi sənədlərin icrası mütləq qaydada təmin edilsin. Azərbaycan Prezidenti İlham Əliyev dəfələrlə bildirib ki, BMT TŞ-nın tərkibi yenilənməlidir. Bu gün artıq körfəz ölkələrinin, İslam dünyasının, Qoşulmama Hərəkatının təmsilçiləri də TŞ-də yer almalıdırlar. Yalnız bu halda BMT-nin nüfuzunu artırmaq və ədalətli dünya nizamına nail olmaq mümkündür.

TŞ-nin sıralarının genişləndirilməsi məsələsi növbəti dəfə yuxarıda bəhs olunan tədbirdə gündəmə gətirilib. Azərbaycan nümayəndəsi əlavə edib ki, inklüziv multilateralizm çərçivəsində böyük və kiçik bütün dövlətlər, xüsusilə inkişaf etməkdə olan ölkələr qlobal qərarların qəbulunda bərabər şəkildə iştirak imkanına malik olmalıdır. Bu baxımdan Təhlükəsizlik Şurasının daha təmsilçi və səmərəli olması üçün islahata ehtiyac olduğu qeyd edilib.

## Baş katib üçün 5 il deyil, 7 illik mandat tələbi

Açıq debatda digər iştirakçılar da BMT-də islahatların zəruriliyindən bəhs ediblər. BMT-nin keçmiş Baş katibi Pan Gi Mun bildirib ki, son illərdə beynəlxalq vəziyyət daha da pisləşib. Ukraynaya qarşı qanunsuz işğal, Qəzza zolağında münaqişə və mülki əhali arasında itkilər, eləcə də iqlim böhranı fonunda beynəlxalq əməkdaşlığın zəifləməsi BMT üçün ciddi böhran yaradıb.

Pan Gi Mun vurğulayıb ki, BMT-nin gücü və effektivliyi birbaşa üzv dövlətlərin siyasi iradəsindən asılıdır. Onun sözlərinə görə, təşkilatın mövcud məhdudiyyətlərini aşmaq üçün dərin və həyati islahatlar qaçılmazdır. "Əgər islahatlar aparılmasa, BMT çökə də bilər", - deyə sabiq Baş katib vurğulayıb.

O, BMT rəhbərliyinin, xüsusilə Baş katibin sülh naminə diplomatiyada daha fəal siyasi rol oynamalı olduğunu qeyd edib. Pan Gi Mun növbəti Baş katib üçün 5 il deyil, 7 illik mandatın tətbiqini təklif edərək, bunun Baş katibin Təhlükəsizlik Şurasının daimi üzvlərindən asılılığını azalda biləcəyini söyləyib.

BMT-dəki böhranın əsas səbəbi kimi Təhlükəsizlik Şurasının fəaliyyətindəki çatışmazlıqlara diqqət çəkən Pan Gi Mun veto hüququndan sui-istifadənin sülh və təhlükəsizlik mandatını zəiflətdiyini deyib. O, veto hüququnun məhdudlaşdırılmasının vacibliyini bildirib və şuranın XXI əsrin reallıqlarına uyğun islah edilməsinə çağırıb.

***Mübariz ABDULLAYEV***

# Abbasov Kərimliyə pul göndərirmiş... Rüstəmlinin vasitəsi ilə ?

Dövlətə və xalqa qarşı xəyanət heç vaxt gizli qalmır. Tarix də, müasir siyasi-hüquqi reallıqlar da göstərir ki, xəyanət üzərində qurulan bütün planlar gec-tez ifşa olunur, maskalar düşür, həqiqət bütün çılpaqlığı ilə üzə çıxır. Dövlətçilik prinsiplərinə, milli maraqlara və xalqın iradəsinə qarşı yönələn hər bir addım cəmiyyət üçün təhlükə olmaqla yanaşı, hüquqi məsuliyyət doğuran ağır cinayətdir. Belə əməllər nə qədər hiyləgər üsullarla pərdələnməyə çalışılsa da, ədalət mexanizmi gec-tez işə düşür və hüquq öz sözünü deyir. Dövlətə xəyanət isə yalnız fərdi cinayət deyil, bütövlükdə cəmiyyətin sabitliyinə, təhlükəsizliyinə və gələcəyinə yönəlmiş təhlükəli addımdır. Buna görə də dövlət bu kimi hallara qarşı prinsipial mövqe sərgiləyir, hüquqi-siyasi mexanizmlər işə salınır və ədalətin bərpası təmin olunur.

## "Milyarderlər ittifaqı" layihəsinin başçısı...

Yeri gəlmişkən, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətində Ramiz Mehdiyev və digərləri barəsində "dövlət hakimiyyətini ələ keçirməyə yönələn hərəkətlər" ittihamı ilə istintaqı aparılan cinayət işi üzrə növbəti qərar bəlli olub. Belə ki, yayılan informasiyalarda bildirilir ki, cinayət işi üzrə toplanmış materiallar əsasında, Azərbaycan Baş nazirinin sabiq birinci müavini, uzun illər Ramiz Mehdiyevin müdafiəsi nəticəsində məsuliyyətdən kənarda qalmış Abbas Abbasovun qeyd olunan cinayət işi üzrə istintaqa cəlb edilməsi barədə qərar qəbul edilib, ölkə hüdudlarından kənarda olmaqla istintaqdan yayındığı üçün barəsində axtarış elan edilib.



Qeyd edək ki, 2006-cı ildə tutduğu vəzifədən azad edildikdən sonra Abbasov Rusiya Federasiyasında yaşamağa başlayıb. Ötən müddət ərzində müxtəlif qanunsuz yollarla Rusiya Federasiyasında Azərbaycan diaspor strukturlarını ələ keçirib təsir altına salmaq istiqamətində pozucu fəaliyyət aparıb. 2012-ci ildə isə hamının "Milyarderlər ittifaqı" adı ilə tanıdığı xəyanətkar qruplaşmanın əsas kuratoru və rəhbəri olub. Azərbaycanda baş tutan 2013-cü il prezident seçkiləri ərəfəsində yaradılmış bu qruplaşma ölkədə sabitliyi pozmaq, dövlətin qeyri-qanuni ələ keçirilməsinə cəhd kimi xəyanətkar əməllər planlaşdırıb. Bununla bağlı Azərbaycanda redikül müxalifət də "təlimatlandırılıb". Onların əlaqələri ilə bağlı müəyyən versiyalar səslənməkdədir.

Mətbuatda gedən xəbərlərdən bəlli olur ki, qeyd olunan şəxslər və təşkilatlar arasında sövdələşməyə uyğun olaraq Azərbaycana müxtəlif kanallarla köçürülmüş pul vəsaitləri, həmin vaxt bu sövdələşmələrə və proses iştirakçılarına olunan vədlərə dair audio-video yazılar, ölkə xaricində baş tutmuş görüşlərə, Azərbaycanda konstitusion dövlət hakimiyyətini zorakı yolla ələ keçirmə planlarına dair sair materiallar cinayət işinə əlavə edilib və açıq məhkəmə baxışında geniş ictimailəşdiriləcək.

## Əli Kərimliyə Rusiyadan gələn "məxfi pullar"

Abbas Abbasovun Ramiz Mehdiyev və onun əlaltılığını həyata keçirən "müxalifətlə" əlaqələri, xüsusilə, maddi "kömək" adı altında pul ötürməsi məsələsində mümkün şübhələr var. Dövlətə və xalqa qarşı xəyanət yolunu seçmiş şəbəkə ilə bağlı aparılan araşdırmalar və üzə çıxan faktlar da bir çox mətləblərin üstünü açır. İllərlə xəyanəti özünə peşə seçmiş şəbəkənin hər bir "həlqəsi" bu prosesdə yer alıb. Məsələn, Əli Kərimliyə illərlə Rusiya Federasiyasından müxtəlif vasitələrlə, xüsusilə ona yaxın olan şəxslərin əli ilə maliyyə verilməsi faktı hər kəsə bəllidir. Hələ 2018-ci ildə Respublika Baş Prokurorluğu və Daxili İşlər Nazirliyinin yaydığı birgə məlumatda bildirilirdi ki, Azərbaycan Xalq Cəbhəsi Partiyası adlı qurum ölkəmizdə və xaricdə dövlətimizə, dövlətçiliyimizə və milli maraqlarımıza zidd olaraq keçirilən tədbirlərin maliyyələşdirilməsi üçün qanunsuz sahibkarlıq fəaliyyəti nəticəsində əldə edilmiş külli miqdarda çirkli pul vəsaitlərinin leqallaşdırılması əməllərini törətməsinə dair kifayət qədər sübutlar toplanıb. Həmin əməllərin törədilməsində qurumun funksionerlərindən Əli Kərimli, Qənimət Zahidov, Saleh Rüstəmli, Vidadi Rüstəmli, Aqil Məhərrəmov, Ruslan Nəsirov, Babək Həsənov və digərlərinin - Bakı şəhər sakinləri Ceyhun Hüseynov, Rauf İsgəndərov, Heydər Əhmədov və Tural Mehdixanovun adı qeyd edilirdi. 2018-ci ildə rəsmi qurumların yaydığı məlumtda bildirilirdi ki, Rusiyada yaşayan Saleh Rüstəmov çirkli pul vəsaitlərinin əldə edilməsinin mənbəyini gizlətmək məqsədilə fərqli yollara əl atıb. Hələ o vaxt bildirilirdi ki, 2016-cı ilin martından adıçəkilən dövrə qədər Bakıda valyuta əməliyyatlarının qanunsuz köçürülməsi ilə məşğul olanların vasitəsilə Əli Kərimliyə çatdırılan pulun miqdarı 412 min ABŞ dolları olub - bunu Saleh Rüstəmli istintaqa ifadəsində özü də etiraf etmişdi. Bildirmişdi ki, uzun müddət ərzində AXCP sədri Əli Kərimliyə mütəmadi olaraq böyük məbləğlərdə pul göndərib. Onun sözlərinə görə, hər dəfə 20-30 min dollar aralığında vəsait çatdırılıb və pul alındıqdan sonra Əli Kərimli tərəfindən "bəy, çatdı" məzmunlu WhatsApp mesajı ilə təsdiq göndərilib.

## "Bazar pulu", yoxsa Abbasovun pulu?

Əli Kərimlinin ətrafı isə iddia edir ki, Saleh Rüstəmli bu pulları "bazardan" qazanıb. Amma gəlin görək, bu qədər pulu "bazardan qazanmaq" mümkündürmü? Təbii ki, xeyr. Hətta mümkün olsa belə, Saleh Rüstəmlinin öz qazancından mütəmadi şəkildə hər ay 20-30 min dollar Əli Kərimliyə göndərməsi inandırıcı deyil.

Belə olan halda Saleh Rüstəmlinin hansı mənbələrdən pul əldə etməsi, daha doğrusu, hansı "ünvanlarla" Əli Kərimli arasında vasitəçi olması maraq doğuran faktlardandır - burada bir nüans diqqəti cəlb edir.

Saleh Rüstəmlinin Əli Kərimliyə yönləndirdiyi, yolladığı pul vəsaitinin Abbas Abbasova məxsus olması və ya Abbas Abbasovun əli ilə Saleh Rüstəmliyə çatdırılması ehtimalı olduqca yüksəkdir. Sirr deyil ki, Rusiyada yaşadığı dövrdə A.Abbasovun maliyyə imkanları geniş olub və onun anti-Azərbaycan qüvvələrlə əməkdaşlığı haqda informasiyalar kifayət qədər yayılıb. Vurğulandığı kimi, 2012-ci ildə yaradılmış "Milyarderlər ittifaqı"nın maliyyə kuratorluğunun da məhz Abbasovun icra etməsi sirr deyildi - nəzərə alsaq ki, məhz həmin ərəfədə Rusiyadan Əli Kərimliyə, "milli şura"ya maliyyə axını daha güclü olub, A.Abbasovla Əli Kərimli arasında pul sövdələşməsi faktının olmasını irəli sürmək olar.

Hər bir halda qanundan və ədalətdən nə qaçmaq, nə də yayınmaq mümkündür. Zaman və araşdırmalar bütövlükdə həqiqətin üzərinə işıq salacaq. R.Mehdiyevin, A.Abbasovun, Ə.Kərimlinin və digər xəyanətkarların da qanun qarşısında, ədalət qarşısında cavab verəcəyi gün uzaqda deyil...

***SADİQ***

# BBC məhkəmə çəkişməsində...

## ABŞ Prezidenti telekanaldan 5 milyard dollar təzminat tələb edir

Xeyli müddətdir ki, davam edən Tramp - BBC qalmaqalı böyüyür. Bugünlərdə ABŞ Prezidenti süni intellekt və ya digər texnologiyalardan istifadə edərək sözlərini təhrif etdiyinə görə Britaniyanın BBC telekanalına qarşı məhkəmə iddiası qaldırıb.

Bu barədə "Reuters" məlumat yayıb. İddiaya görə, Tramp 6 yanvar 2021-ci il tarixli çıxışının bəzi hissələrinin telekanal tərəfindən yanlış redaktə olunduğuna görə ən azı 5 milyard dollar təzminat tələb edir.



### Kapitoliyə basqın etməyə çağırış təəssüratı yaradan yanlış yayım

ABŞ Prezidentinin transmilli media qurumu olan BBC-yə qəzəbi telekanalın seçkilər ərəfəsində yayımladığı filmdən qaynaqlanır. Trampın hüquq komandasının nümayəndəsi bildirib ki, "BBC prezident seçkilərinə müdaxilə etmək cəhdi ilə sənədli filmi qəsdən və aldadıcı şəkildə redaktə etməklə Prezident Trampı rüsvay edib".

"Tramp: İkinci Şans?" adlı sənədli filmdə Trampın 2021-ci il yanvarın 6-da söylədiyi çıxış montaj edilməklə onun həmin gün Kapitoli binasında baş vermiş iğtişaşları birbaşa təşviq etdiyi təəssüratı yaradılıb. Ötən ilin noyabrında yayımlanan sənədli film yalnız bu yaxınlarda BBC prodüserlərini tənqid edən daxili yazışmaların sızmasından sonra yenidən gündəmə gəlib.

Sənədli filmdə Trampın "Tam gücümüzlə mübarizə aparacağıq" cümləsini "Kapitoliyə gedəcəyik" ifadəsindən dərhal sonra söylədiyi göstərilir.

Əslində isə Tramp Kapitoliyə getmək barədə bəyanatından sonra "cəsur senatorlarımızı və konqresmenlərimizi dəstəkləyəcəklərini" deyib, "mübarizə aparmaq" ifadəsini isə təxminən bir saat sonra işlədib. Beləliklə də, BBC-nin yayımı Kapitoliyə basqın etməyə çağırış təəssüratı yaradıb ki, D.Tramp bunu soyuqqanlı qarşılaya bilməzdi.

D.Trampın komandası məhkəmədə təzminat iddiası qaldırmazdan öncə BBC ilə münasibətləri, necə deyərlər, ikitərəfli razılaşma qaydasında yoluna qoymağa çalışıb. Belə ki, Prezidentin vəkilləri bundan əvvəl BBC-yə göndərdikləri məktubda telekanaldan 2024-cü ildə ABŞ-da prezident seçkilərindən bir həftə əvvəl yayımlanan sənədli filmdə yer alan "yalan, böhtan xarakterli, nüfuzdan salan, aldadıcı və təhrikedici ifadələri" geri götürməyi tələb ediblər. Məktubda qeyd olunub ki, BBC həmin sənədli filmi öz saytından və sosial media hesablarından "tam şəkildə" silməli və "Prezident Trampın çəkdiyi zərərə görə uyğun kompensasiya" təmin edilməlidir. Əks halda, BBC-nin ABŞ-ın Florida ştatında "hüquqi tədbirlərlə üzləşəcəyi" bildirilib. "Sizi xəbərdar edirik. Zəhmət olmasa, müvafiq şəkildə davranın", - deyə sosial mediada yayılan məktubda vurğulanır.

Hadisədən sonra BBC-nin baş direktoru Tim Deyvi və xəbər şöbəsinin rəhbəri Deborah Törness qalmaqal fonunda istefa veriblər. Tramp bu istefaları "Truth Social" platformasında alqışlayaraq onları "korrupsioner" və "nədürüst insanlar" adlandırıb.

BBC-nin sədri Samir Şah isə noyabrın 10-da sözügedən kadrın "aldadıcı" olduğunu etiraf edib və "səhv qərar" üçün üzr istəyib, lakin qurumun sistemli şəkildə qərəzli olması ilə bağlı iddiaları rədd edib. Eyni zamanda, telekanal baş verənlərlə bağlı bəyanat yayıb. "Biz etiraf edirik ki, redaktəmiz istər-

### BBC üzr istəsə də...

istəməz, fərqli anlardan olan kliplər deyil, nitqin vahid, davamlı bölməsini göstərdiyimiz görüntüsü yaratdı və bu, Prezident Trampın birbaşa zorakı hərəkətlərə çağırdığı barədə yanlış təəssürat oyatdı. Düzəlişlər və aydınlaşdırmalar" bölməsində yerləşdirilmiş üzrxahlıqla yanaşı, BBC proqramı efirdən çıxarıb", - deyə bəyanatda vurğulanıb.

Belə görünür ki, BBC yanlış yayıma görə üzr istəsə də , bu, Tramp və onun komandası üçün yetərli olmayıb. Buna görə də Prezident - telekanal münasibətlərini məhkəmə müstəvisində çözmək qərara alınıb. Mütəxəssislər proseslərin bu şəkildə irəliləməsini iki baxış bucağından dəyərləndirirlər. Birincisi, Prezidentin komandasının telekanaldan təzminat tələbi Trampın ABŞ büdcəsinə mümkün qədər çox vəsait cəlb etmək siyasəti ilə izah oluna bilər. Düzdür, 5 milyard dünya nəhəngi olan ABŞ üçün dəryada damladır. Ancaq müdriklər "dama-dama göl olar " ifadəsini təsadüfən işlətməyiblər. Ağ Evin yeni administrasiyası da bu yanaşmadan çıxış edir.

D.Tramp - BBC qarşıdurması eyni zamanda ABŞ Prezidentinin "fake" məlumatlar yayan mediaya qarşı qətiyyətli mübarizəyə başlamasının tərkib hissəsi kimi dəyərləndirilə bilər. Həqiqətən də, indi bu məsələ dünyanın kədərli reallıqlarından biridir. Ayrı -ayrı qeyri - hökumət təşkilatları, media subyektləri bu və ya digər siyasi qurumların, güc mərkəzlərinin əlində alətə çevriliblər. Çirkin işbirliyi yaranıb. Bir sıra hallarda ləyaqətli insanlar, ölkələrinin maraqlarından çıxış edən siyasətçilər, partiya liderləri qərəzli sifarişlərin hədəfinə çevrilirlər. Onlara qarşı eyni mərkəzlərdən sifariş edilən "qara piar" aparılır. Təbii ki, belə kampaniyaların arxasında böyük həcmlərdə ödənişlər dayanır. Ayrı-ayrı əməkdaşlar, bütöv redaksiyalar pulla ələ alınır və onların fəaliyyəti istiqamətləndirilir. Xatırladaq ki, Donald Tramp bundan əvvəl də onu tənqid edən jurnalistlərlə və media qurumları ilə də, necə deyərlər, haqq-hesab çəkib. Belə ki, o, ikinci prezidentliyi dövründə indiyə qədər "The New York Times", "The Wall Street Journal" və "ABC News"a qarşı böhtan iddiaları qaldırıb, həmçinin NPR və PBS-ə dövlət maliyyəsini azaldıb, "Associated Press" müxbirlərinin Ağ Evə akkreditasiyasını ləğv edib.

Belə görünür ki, indi növbə BBC-yə çatıb. Azərbaycan BBC-nin saxta və qərəzli media maşını olduğunu dəfələrlə beynəlxalq ictimaiyyətin diqqətinə çatdırıb. Qurumun yayımlarında ədalət, beynəlxalq hüquq, demokratiya, obyektivlik kimi prinsiplər çoxdan unudulub. Belə ki, BBC-nin getdikcə daha çox dərəcədə ayrı-ayrı dairələrin və maliyyə qaynaqlarının ruporuna çevrildiyi, alət qismində istifadə olunduğu aydın şəkildə müşahidə edilir. Bütün bunlara görə BBC cəzalandırılmalıdır. Zamanında Azərbaycanın etdiyini, indi Ağ Ev, D.Tramp edir ki, bunu da Qərbin daha bir kədərli etirafı kimi dəyərləndirmək mümkündür.

*Mübariz FEYİZLİ*

# Qərb koalisiyası Berlindən səsləndi...

## Ukrayna - Rusiya müharibəsi finişə yaxınlaşır?

Ukrayna - Rusiya müharibəsinin dayandırılması istiqamətində gedən danışıqlar "finala" yaxınlaşır. Prosesdə aktiv vasitəçilik missiyası həyata keçirən ABŞ münaqişə tərəfləri ilə görüşlər keçirib, sülh planı ilə bağlı müzakirələr aparıblar. Cenevrə, Əbu-Dabi, Moskva və başqa şəhərlərdə baş tutan görüşlərdə həm Rusiya, həm də Ukrayna öz mövqeyini ortaya qoyub. Son olaraq bir neçə gün öncə aparılan Berlin danışıqları isə daha yaddaqalan olub. Berlində Zelenskinin rəhbərlik etdiyi Ukrayna nümayəndə heyəti ilə ABŞ Prezidentinin xüsusi elçisi Stiv Vitkoff və Cared Kuşner arasında iki raund danışıqlar keçirilib. Almaniya hökuməti Berlindəki danışıqların iqtisadi məsələlərə və Ukraynada sülh danışıqlarının vəziyyəti ilə bağlı fikir mübadiləsinə yönəldiyini bildirib. Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Rüstəm Umerov Berlində keçirilən danışıqların məhsuldar olduğunu bildirib və tez bir zamanda sülh razılaşmasının əldə olunmasına ümid etdiyini deyib. "Axios" Amerika rəsmisinə istinadən, ABŞ-ın da görüşü məhsuldar hesab etdiyini yazıb. Vaşinqton və Kiyev arasında danışıqlardan sonra Almaniya kansleri Ukraynada əsl sülh üçün şans yarandığını bəyan edib. Merts vurğulayıb ki, ABŞ olmasaydı, belə bir müsbət impuls olmazdı.

Sülhyaratma prosesində hələ də razılaşdırılmayan nüanslar qalsa da, ümumi ortaq fikir əldə olunub. Hətta Ukraynanın əsas dəstəkçisi sayılan Avropa İttifaqının aparıcı dövlətləri də proseslə bağlı fikirlərini bölüşüblər. Belə ki, Berlində baş tutan ABŞ-Ukrayna danışıqlarının ardından "istəkli ölkələr koalisiyası"na daxil olan 14 ölkənin dövlət və hökumət başçıları, həmçinin ABŞ Prezidentinin xüsusi nümayəndələrinin iştirakı ilə müzakirə aparılıb.

### Ukrayna üçün sülhə gedən yol "planı"...

Almaniya Kanslerinin ofisində keçirilən görüşdə Fridrix Merts, Ukrayna Prezidenti Volodimir Zelenski, ABŞ Prezidenti Donald Trampın kürəkəni Cared Kuşner, ABŞ-ın xüsusi elçisi Stiv Uitkof, Fransa Prezidenti Emmanuel Makron, Avropa Komissiyasının Prezidenti Ursula fon der Lyayen, NATO-nun Baş katibi Mark Rutte, Danimarkanın Baş naziri Mette Frederiksen, Finlandiya Prezidenti Aleksandr Stubb, İtaliyanın Baş naziri Corcia Meloni, Norveçin Baş naziri Yonas Qar Store, Polşanın Baş naziri Donald Tusk və Niderlandın Baş naziri Dik Sxof iştirak ediblər. Dövlət və hökumət başçıları yaydıqları birgə bəyanatda Ukrayna üçün çoxmilliətli qüvvələrin yaradılmasını dəstəklədiklərini bildiriblər.

"Bild" qəzetinin əldə etdiyi sənəddə qeyd olunub ki, tərəflər müharibənin dayandırılmasına dair mümkün razılaşma kontekstində Ukraynaya möhkəm təhlükəsizlik zəmanətləri və iqtisadi bərpa üçün dəstək tədbirləri təqdim etmək məqsədilə birgə fəaliyyət göstərmək niyyətlərini ifadə ediblər. Qeyd olunub ki, bu yanaşma, digər məsələlərlə yanaşı, ABŞ tərəfindən dəstəklənən, Avropanın rəhbərliyi altında, istəkli ölkələrin töhfələrindən formalaşan və "İstəkli ölkələr koalisiyası" çərçivəsində fəaliyyət göstərəcək 'Ukrayna üçün çoxmillətli qüvvə"ni nəzərdə tutur. Bildirilib ki, bu qüvvə Ukrayna Silahlı Qüvvələrinin bərpasına, Ukraynanın hava məkanının qorunmasına və daha təhlükəsiz dənizlərin təmin edilməsinə, o cümlədən ölkə ərazisində aparılacaq əməliyyatlar vasitəsilə töhfə verəcək. Bundan əlavə, dövlət və hökumət başçıları sülh sazişi əldə olunacağı təqdirdə Ukrayna Silahlı Qüvvələrinin formalaşdırılması üçün davamlı və əhəmiyyətli dəstəyin göstərilməsini planlaşdırırlar. Sənədə əsasən, sülh dövründə Ukrayna ordusunun daimi şəxsi heyətinin sayı 800 min hərbçiyə çatdırılmalıdır. Bu addımın məqsədi münaqişələrin qarşısının alınması və Ukraynanın ərazi bütövlüyünün müdafiə olunmasıdır.

### Ukraynanın gələcək rifahına investisiya qoyuluşu...

Sənəddə ABŞ-ın atəşkəsə nəzarət və onun yoxlanılması mexanizmi yaratması da nəzərdə tutulur. Qeyd olunub ki, bu mexanizm beynəlxalq iştirakla qurulmalı və gələcək mümkün hücumlar barədə erkən xəbərdarlıq etməyə, atəşkəsin potensial pozuntularını izləməyə və bu pozuntulara cavab verməyə imkan yaratmalıdır. Eyni zamanda, eskalasiyanın qarşısını almağa yönəlmiş tədbirlərin görülməsi də planlaşdırılır.

Avropalılar, həmçinin gələcəkdə silahlı hücum baş verərsə, sülhün və təhlükəsizliyin bərpası üçün tədbirlərin görülməsini nəzərdə tutan, Ukrayna hüququna əsaslanan məcburi öhdəlik üzərində işləməyi planlaşdırdıqlarını vurğulayıblar.

Dövlət və hökumət başçıları eyni zamanda bəyan ediblər ki, bu tədbirlər silahlı qüvvələrin təchizatını, kəşfiyyat və logistik dəstəyi, eləcə də iqtisadi və diplomatik addımları əhatə edə bilər. Bu isə Ukraynaya real təhlükə zamanı faktiki yardım göstərilib-göstərilməyəcəyinin açıq saxlanıldığını göstərir.

Sənəddə Ukraynanın gələcək rifahına investisiya qoyuluşu da nəzərdə tutulub. Buraya iqtisadi və maddi bərpa üçün geniş resursların ayrılması, qarşılıqlı faydaya əsaslanan ticarət sazişləri və Rusiyanın vurduğu ziyana görə Ukraynaya kompensasiya ödəməsinin zəruriliyinin nəzərə alınması daxildir. Bundan başqa, birgə bəyannamədə Ukraynanın Avropa İttifaqına üzvlüyünün qətiyyətlə dəstəkləndiyi xüsusi vurğulanıb.



### Kiyev özü qərar verəcək...

"Reuters"in mənbəyinə görə, ərazi məsələsi hələ də həll olunmayıb - danışıqlardan sonra Ukrayna prezidenti Volodimir Zelenski mövzunu "ağrılı və mürəkkəb" adlandırıb. "The Wall Street Journal"ın məlumatına görə, Vaşinqtonun təklifinə görə, bunlar NATO Müqaviləsinin 5-ci maddəsində nəzərdə tutulanlara bənzəyir. Almaniya Kansleri Fridrix Merz, təfərrüatları açıqlamadan ABŞ-ın təklif etdiyi zəmanətlərin "gözəl" səsləndiyini qeyd edib. Merts Ukrayna Prezidenti Volodimir Zelenski ilə keçirdiyi mətbuat konfransında bildirib ki, ABŞ və Ukrayna təhlükəsizlik zəmanətləri barədə razılığa gəliblər. Mertsin sözlərinə görə, ABŞ əhəmiyyətli zəmanətlər verməyə hazır olduğunu bildirib: "ABŞ-ın Berlində hüquqi və maddi zəmanətlər baxımından təklifi həqiqətən diqqətəlayiqdir. Bu, çox vacib bir addımdır və mən bunu qətiyyətlə alqışlayıram." O, Ukraynanın mümkün ərazi güzəştləri barədə özü qərar verəcəyini vurğulayıb.

Zelenskinin sözlərinə görə, ABŞ, Avropa və digər dövlətlərlə təhlükəsizlik müqavilələri NATO-nun 5-ci maddə üzrə öhdəliyinə oxşar şəkildə fəaliyyət göstərəcək. Bu maddə NATO üzvündən birinə hücumun hamıya hücum olduğunu müəyyən edir. Bu halda, alyansın bütün üzvləri zəruri hesab etdikləri təqdirdə, silahlı qüvvədən istifadə etməklə kömək etməyi öhdələrinə götürürlər.

### Moskva razı deyil...

Moskva isə sülh müqaviləsinin bir hissəsi olaraq Qərb qoşunlarının Ukraynaya yerləşdirilməsi ideyası ilə razılaşmadığını bildirib. Bundan əlavə, Rusiya Ukrayna Silahlı Qüvvələrinin Donetsk və Luqansk, eləcə də Zaporojye və Xerson bölgələrindən çıxarılmasını nizamlamanın əsas şərtləri kimi göstərib. Xarici İşlər Nazirliyi bildirib ki, bütün tərəflər üçün təhlükəsizlik zəmanətləri təmin edilməlidir. Kreml Berlin danışıqlarının özü ilə bağlı şərh verməkdən imtina edib və müzakirələrdən sonra Vaşinqtonun yekun mövqeyini gözlədiyini qeyd edib.

*P.İSMAYILOV*

# YENİ AZƏRBAYCAN

http://www.yeniazerbaycan.com

Azərbaycanın dövlət müstəqilliyi Azərbaycan xalqının milli sərvətidir



**“Yeni Azərbaycan” qəzetinə abunə olmaq istəyənlər aşağıdakı yayım şirkətləri ilə əlaqə saxlaya bilərlər:**

“Azərpoçt” MMC PDM- 0125984955, 0552004544
“Azərmətbuatyayımı” ASC - 0124411991, 0124404694
“Səma” MMC - 0125940252, 0503336969
“Pressİnform” MMC - 0703400100, 0504560835
“Qaya” MMC - 0125667780, 0502352343
“Bakmətbuat” MMC - 0124314313
“Ziya LTD” MMC - 0124977696, 0503067744

**6 aylıq abunə - 79,20 AZN**
**12 aylıq abunə - 158,40 AZN**







# Güclü müdafiə, genişlənən perspektivlər...

## Hərbi sənayemiz yeni dövrünü yaşayır

Hərbi potensial ölkənin sadəcə müdafiə qabiliyyətini deyil, həm də regional və qlobal geopolitik mövqeyini əks etdirən mühüm bir göstəricidir. Azərbaycanın bu sahədəki inkişafı təkcə müasir silahlar və texnologiyalarla deyil, həm də hərbi təlimlər, strateji müttəfiqliklər və beynəlxalq əməkdaşlıqlarla ölçülür. Hələ sovet hakimiyyəti dövründə respublikamızda ağır maşınqayırma və hərbi sənaye kompleksi müəssisələrinin tikilməsi üçün təşəbbüslər göstərilib. Həmin dövrdə işə salınmış bir sıra zavodlar, elm-istehsalat sahələri hazırda ölkəmizin müdafiə sənayesinin mövcud potensialının mühüm bir hissəsini təşkil edir.

Müstəqil dövlət quruculuğu dövründə işğala məruz qalan ölkəmizin müdafiə potensialının yaradılması üçün məqsədyönlü işlər aparılıb. Bu gün Azərbaycan Ordusu ən yaxın müttəfiqi olan Türkiyənin hərbi modeli əsasında formalaşdırılır. Belə ki, orduya sərf olunan xərclərin artırılması, yeni bölmələrin, milli müdafiə institutlarının yaradılmasını və xüsusi təyinatlıların sayının artırılmasını nəzərdə tutan bir sıra yeni hərbi islahatların aparılması da məhz türk modeli əsasında həyata keçirilir.

### Hərbi sənaye kompleksimizin inkişafı

Ölkəmizin müdafiə sənayesinin inkişafı daim diqqətdə saxlanılır, gücləndirilməsi və modernləşdirilməsi üçün zəruri tədbirlər həyata keçirilir. 2005-ci ildə Azərbaycanın Müdafiə Sənayesi Nazirliyi yaradılıb, bir sıra zavodlar, istehsal sahələri, elmi tədqiqat mərkəzləri və Aerokosmik Agentlik onun tərkibinə verilib. Bu addım ölkəmizin hərbi sənaye kompleksinin əsaslı şəkildə yenidən qurulmasına və onun müdafiə qüdrətinin möhkəmləndirilməsinə böyük töhfə verib. Nazirliyin 23-dən çox müəssisəsində ən müasir texnologiya və avadanlıqla təchiz olunan 50-dən çox yeni istehsal sahəsi yaradılıb. İstehsal sahələrində müasir tələblərə cavab verən rəqəmsal, proqram təminatlı 25-dən çox mürəkkəb texnoloji xətt və avadanlıqlar quraşdırılıb. 2200-dən çox müxtəlif təyinatlı dəzgah, 10 minlərlə cihaz, alət və tərtibatlar alınaraq istismar üçün müəssisələrə verilib.

Yeri gəlmişkən, bu gün Müdafiə Sənayesi Nazirliyi (MSN) işçilərinin peşə bayramıdır. Prezident İlham Əliyevin 2009-cu il 10 noyabr tarixli sərəncamı ilə hər il dekabrın 17-si ölkəmizdə MSN işçilərinin peşə bayramı günü kimi qeyd edilir.



### Hərbi qüdrətimiz artır

Hər bir Azərbaycan vətəndaşının qürur mənbəyi olan Silahlı Qüvvələrimizin daha müasir silah, sursat və hərbi texnika ilə təchiz edilməsi, milli müdafiə sənayesinin təkmilləşdirilməsi və müdafiə təyinatlı məhsulların yerli istehsalının genişləndirilməsi istiqamətində zəruri tədbirlər davam edir. Sözsüz ki, Azərbaycanın hərbi qüdrətinin artırılması, müdafiə qabiliyyətinin daha da inkişaf etdirilməsi məqsədilə yaradılmış Müdafiə Sənayesi Nazirliyinin bugünkü nailiyyətləri dövlət başçısının bu sahədə həyata keçirdiyi davamlı siyasətin və göstərdiyi yüksək diqqətin nəticəsində mümkün olub.

Xüsusilə qeyd olunmalıdır ki, Müdafiə Sənayesi Nazirliyinin fədakar və zəhmətkeş kollektivi daim dövlətimizin yüksək diqqət və qayğısı ilə əhatə olunur. Ölkənin müdafiə sənayesinin gələcək inkişafına təkan verən layihələrin qəbulu, işçilərin maddi rifahının yaxşılaşdırılması və görülən digər tədbirlər müdafiə sənayesi işçilərində dərin minnətdarlıq və sonsuz ehtiram hissləri doğurmaqla yanaşı, onların üzərinə əlavə məsuliyyət də qoyur. Güclü və müasir müdafiə sənayemiz Azərbaycanın hərbi və geosiyasi qərarlarının əsasını təşkil edir, ölkəmizin dünya səhnəsində gücünü daha da artırır.

### Tarixi qələbəmizə mühüm töhfə...

Ərazi bütövlüyümüzün təmin edilməsində başlıca rol oynayan, Azərbaycanın hərb salnaməsinin qızıl səhifəsini yazan Silahlı Qüvvələrimizin Vətən müharibəsində qazanılan tarixi qələbəsində Müdafiə Sənayesi Nazirliyi öz layiqli töhfələrini verib. Əks-hücum əməliyyatında Silahlı Qüvvələrin silah, sursat, hərbi-xüsusi texnika, pilotsuz uçuş aparatları və digər məhsullar ilə fasiləsiz təmin edilməsi üçün Müdafiə Sənayesi Nazirliyinin tabeli qurumları və müəssisələri gücləndirilmiş iş rejimində çalışıb. Bu dövlət orqanının monolit kollektivinin 72 üzvü qanlı döyüşlərdə iştirak edib, 3 əməkdaşı qəhrəmancasına həlak olaraq şəhidlik zirvəsinə ucalıb, 7 işçisi yaralanaraq qazi olub.

*Yeganə BAYRAMOVA*

# 2026-cı il yaxınlaşır...

Yeni ilin gəlməsinə sayılı günlər qalıb. 2025-ci ili geridə qoyub, 2026-cı ili qarşılamağa hazırlıqlar görürük. Hər kəsin Yeni ildən gözləntiləri fərqli olsa da, ortaq arzumuz sevdiklərimizlə xoşbəxt, dinc və sağlam bir il keçirməkdir. Təbii ki, digər bayramlar kimi Yeni ilin də olmazsa-olmazı bayram süfrəsidir. “Yeni ili necə qarşılasan, bütün il də elə keçəcək”, deyirlər. Ona görə də bayram süfrələrini hazırlamaq üçün, “yaxşı bazarlıq” etmək vacibdir.

Qiymətlər isə hər ailə üçün büdcə hesabını yenidən gündəmə gətirir. Ərzaq məhsullarının qiyməti, həmçinin restoranlardakı Yeni il menyuları əvvəlki illərə nisbətən fərqlidir. Bu il ölkəmizdə orta statistik ailə üçün Yeni il süfrəsi neçəyə başa gələcək?

## Bayram süfrəsi neçəyə başa gəlir?

### 4 nəfərdən ibarət ailə üçün...

Orta statistik 4 nəfərdən ibarət ailə bayram süfrəsini standart yeməklərlə - salat, dolma, plovla bəzəmək istəsə, xərclər belə olur: toyuq ətinin 1 kiloqramı orta hesabla 7-9 manat, digər ət məhsullarının qiyməti isə 18-20 manat arasında dəyişir.

Salatlar və tərəvəzlər isə xırda görünən, amma toplandıqda əhəmiyyətli xərc yaradan kateqoriyadır. Salat üçün tərəvəz və göyərti 15-17 manat, mayonez və souslarla birlikdə isə 20-23 manat xərclənir.

Plov üçün ayrıca xərc tələb olunur: 1 kq düyü 3,80 AZN, 1 kq qayısı 9-12 AZN, 1 kq kişmiş 8-14 AZN, 1 kq şabalıd 8 AZN, 1 kq soğan 0,40-0,90 AZN, 1 kq ət isə 17-20 AZN təşkil edir.

Orta səviyyəli tortun qiyməti 25-35 manat, 1-2 kq konfetlə birlikdə 45-50 manat xərcə başa gəlir. Meyvə isə süfrənin ayrılmaz hissəsidir: almanın kilosu 1,8-2,5 manat, portağalın kilosu 2-3 manat, banan isə 3-4 manat təşkil edir. 4 nəfərlik ailə üçün meyvə xərcləri 12-18 manat civarında olur.

Bütün bunlar toplandıqda, orta səviyyəli Yeni il süfrəsinin xərci 4 nəfər üçün təxminən 110-150 manat olur. Seçilən məhsulun növü və miqdarından asılı olaraq, bu rəqəm dəyişə bilər.

### Quş məhsullarının qiyməti...

**Adətən Yeni il süfrəsinin menyusu dedikdə ağla gələn ilk yeməklərdən biri nar kimi qızardılmış hinduşka ətidir. Lakin bunu da almağa hər ailənin büdcəsi yetmir.**

**Hinduşka fərə- 45 AZN**
**Xoruz- 22-25 AZN**
**Kənd çolpası- 15 AZN**

### Şam ağacı...

**Yeni ilin əsas atributlarından sayılan şam ağacının (yolkaların) qiyməti də fərqlidir. Belə ki, yolkalar minimum 15, maksimum 2500 manata təklif edilir. Qiymətlər ölçü və keyfiyyətə görə dəyişir. Satıcılar şam ağaclarının Çindən gətirildiyini bildirirlər. Lakin qiymətlərin yüksək olmasına baxmayaraq, alıcı qıtlığı yaşanmır.**



### Restoranların Yeni il şənliyi qiymətləri...

Bakıda 31 dekabr - Yeni il gecəsi restoranlarda bayram menyularının qiymətləri bəlli olub. Restoranların bəzilərinin qiymətlərini təqdim edirik:

“Çanaqqala” restoranı: Yemək, konsert proqramı daxil olmaqla, adambaşı qiymət 80-130 manat. 5-12 yaş arası uşaqlar üçün yarı qiymət, yaşı 5-dən kiçik olan uşaqlar üçün pulsuz.

“La Marine Baku” restoranı: Bayram menyusu və şou proqramlar daxil qiymət adambaşı 100 manat, 5-12 yaş arası uşaqlar üçün yarı qiymət, yaşı 5-dən kiçik olan uşaqlar üçün pulsuz.

“Sədəf” restoranı: Bayram menyusu və şou proqramlar daxil qiymət adambaşı 100 manat.

“Xan Baku” restoranı: Konsert proqramı və menyu daxil olmaqla, qiymətlər 120-140 manat.

“Baku Castle”restoranı: Menyu, şou proqram, ardınca atəşfəşanlıq daxil olmaqla, qiymət adambaşı 140 manat təşkil edir.

“Lido” restoranı: Konsert proqramı və menyu daxil olmaqla, qiymətlər adambaşı 150 - 200 manat arasındadır.

“Valentino Baku” və “Glass” restoranında konsert proqramı və menyu daxil olmaqla, adambaşı qiymət 160 manat.

“AD” restoranı: Konsert proqramı və menyu daxil olmaqla, qiymətlər 150-180 manat.

“Cratos” restoranı: Menyu, konsert proqramı daxil olmaqla, bir nəfərlik biletin qiyməti 150-200 manat, 5-12 yaş arası uşaqlar üçün yarı qiymət, yaşı 5-dən kiçik olan uşaqlar üçün pulsuz.

“Niaqara” restoranı: Konsert proqramı və menyu daxil olmaqla, qiymətlər 150-200 manat arası, 6 yaşına qədər uşaqlar üçün isə pulsuz.

“Nar Şərab” restoranı: Yemək, konsert proqramı daxil olmaqla, bir nəfərlik biletin qiyməti zala görə 160-270 manat arası, 5-12 yaş arası uşaqlar üçün yarı qiymət, yaşı 5-dən kiçik olan uşaqlar üçün pulsuz.

“Mənzərə” restoranı: Bayram menyusu və şou proqramları daxil qiymət adambaşı 250-300 manat.

“Hilton Baku” otelində yerləşən “CİLANTRO” restoranında Yeni il gecəsi adambaşı 200 manat, 5-12 yaş arası uşaqlar üçün yarı qiymət, yaşı 5-dən kiçik olan uşaqlar üçün pulsuz. Həmçinin uşaqlar üçün santa və şou proqramlar da keçirilir.

“SKY GRİLL” restoranında qiymət band qrupu, şou proqram, set menyu ilə içkilər daxil adambaşı 400 manat.

“Manqal Steak Haus” restoranı: Yemək, konsert proqramı daxil olmaqla, bir nəfərlik biletin qiyməti 400 manat, 5-12 yaş arası uşaqlar üçün yarı qiymət, yaşı 5-dən kiçik olan uşaqlar üçün pulsuz.

*Yeganə BAYRAMOVA*

# Bakcell texno-blogerlər üçün “Media Tech” təlimini həyata keçirdi

İnnovasiya lideri Bakcell-in rəqəmsal bacarıqların inkişafına yönəlmiş “MediaTech” layihəsi çərçivəsində təlim proqramı baş tutub. “Smart Nation” ilə birgə həyata keçirilən “MediaTech: Blog the Future” tədbiri ilk dəfə texno-blogerlər üçün nəzərdə tutulmuş innovativ məzmunlu təlim proqramı olub. Təlimin əsas məqsədi texnoloji influenserliyə maraq göstərən yeni nəsil kontent istehsalçılarını bir araya gətirmək, onların praktiki biliklərini artırmaq və bu bilikləri müasir, innovativ yanaşmalarla möhkəmləndirmək olub.

Ümumilikdə 60-dan çox texno-blogerin iştirak etdiyi proqramda iştirakçılar rəqəmsal məzmun istehsalı, şəxsi brendinq, rəqəmsal marketinq strategiyaları, alqoritmlərin iş prinsipləri və mobil videoyaradıcılıq kimi sahələr üzrə intensiv sessiyalarda iştirak ediblər. Sessiyalar real nümunələr və praktik tapşırıqlar əsasında qurularaq iştirakçılara əldə etdikləri bilikləri dərhal tətbiq etmək imkanı yaradıb.




Təlimin sonunda gələcəyin texnoloji influenserlər sosial media üçün məzmun quruluşu yaratmaq, rəqəmsal auditoriya ilə effektiv ünsiyyət qurmaq, trend analizləri aparmaq və mobil kontent istehsalında innovativ metodlardan istifadə etmək bacarıqlarını inkişaf etdiriblər.

Bu təşəbbüs Bakcell-in Azərbaycanda rəqəmsal savadlılığın artırılmasına, innovasiya və texnologiya ekosisteminin gücləndirilməsinə yönəlmiş davamlı və strateji fəaliyyətlərinin növbəti uğurlu nümunəsidir.

**Bakcell haqqında**

Bakcell Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan Bakcell süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir.

Bakcell müxtəlif ölkələrdə telekommunikasiya, enerji, yüksək texnologiyalar və tikinti sahələrində fəaliyyət göstərən “NEQSOL Holding” beynəlxalq şirkətlər qrupunun tərkibinə daxildir.


Təsisçi:
Yeni Azərbaycan Partiyası
Baş redaktor:
Alqış HƏSƏNOĞLU

www.yeniazerbaycan.com
mail@yeniazerbaycan.com
Ünvan: Bakı - AZ-1000, Üzeyir Hacıbəyli - 66
Telefonlar:
493-16-94
498-19-84

İndeks: 67100
Lisenziya: N-B-317
Tiraj: 4826
Sifariş: 2554
“Kapital Bank” ASC-nin Nərimanov rayon filialı
h/h - 33080019443900419109
kod - 200093
VÖEN - 1500486601

Qəzet “Yeni Azərbaycan”ın bilgisayar mərkəzində yığılıb, səhifələnib və “Azərbaycan” nəşriyyatında ofset üsulu ilə çap edilib.

Qəzet 1993-cü ilin aprel ayından nəşr olunur.
Məsul növbətçi:
Yeganə Bayramova